AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

21 APREL 2018-ci il ŞƏNBƏ № 88 (6121) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Kuba Respublikası Dövlət Şurasının Sədri Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Sədr,

Kuba Respublikası Dövlət Şurasının Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kuba arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Kuba xalqının rifahı naminə qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2018-ci il.**

## Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin əsasnamələrinin layihələrini, strukturları və işçilərinin say həddi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsait çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin 2018-ci ildə fəaliyyətinin maliyyələşməsini təmin etsin;

*2.3.* Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təşkili üçün maddi-texniki təminatı ilə bağlı məsələləri həll etsin;

*2.4.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.5.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.6.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.7.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2018-ci il.**

# Prezident İlham Əliyev paytaxta gətirilən yeni metro qatarlarında yaradılan şəraitlə tanış olub

**Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bakı Metropoliteninin "İçərişəhər" stansiyasına gəldi.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına yeni metro qatarları barədə məlumat verdi. Son illərdə digər sahələrdə olduğu kimi, Bakı Metropoliteni ən müasir avadanlıqla təchiz edilməsi və sərnişinlərin rahatlığının təmin olunması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlər həyata keçirilir. Bu işlərdə əsas məqsəd paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının rahat hərəkət etmələri, onların mənzil başına təhlükəsiz çatmalarıdır.

Bu gün Bakı Metropoliteni ən çox sərnişin daşıyan nəqliyyat növü olmaqla, şəhər sakinlərinə və paytaxtımızın qonaqlarına yüksək səviyyədə xidmət göstərir. Yeni vaqonların alınması isə bu xidməti daha da yüksəltməyə geniş imkan yaradır.

Prezident İlham Əliyev yeni metro vaqonlarına baxdı.

2018-ci ildə Rusiyanın "Transmaşholdinq" şirkətinin "Metrovaqonmaş" Açıq Səhmdar Cəmiyyətində istehsal olunan bu vaqonlar müasirliyi ilə seçilir. Yeni qatarın sürəti saatda 90 kilometrdir. Qatarın baş vaqonu 38 oturacaqlı olmaqla, ümumilikdə, 315 yerlik, orta vaqonu isə 44 oturacaqlı olmaqla, ümumilikdə, 328 yerlikdir. Yeni vaqonların mühərriklərinin gücü 170 kilovatdır.



Qəza, sürüşmə, yanğın əleyhinə yeni sistemlərin tətbiqi qatarda hərəkət təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırıb. Vaqonlardakı sərnişinlərin təhlükəsizliyi daxili və xarici videomüşahidə sistemləri əsasında təmin edilir. Bu sistem nəinki maşinistə müraciət edən sərnişini, həmçinin onun ətrafında olan vəziyyəti qiymətləndirməyə imkan verir.

**(davamı 2-ci səhifədə)**

## Ə.Ş.Həsənovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həllində səmərəli fəaliyyətinə görə Əli Şamil oğlu Həsənov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2018-ci il.**

## 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər İkinci Dünya müharibəsində Qələbənin 73-cü ildönümü ilə əlaqədar **qərara alıram:**

**1.** 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000,0 (min) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500,0 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

*2.1.* Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon (beş milyon doqquz yüz min) manat ayrılsın;

*2.2.* Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

*2.3.* Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2018-ci il.**

## İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq, Azərbaycanda istehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti əsasında mərkəzi icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Dövlət Agentliyi) yaradılsın.

**2.** Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi (bundan sonra - Əqli Mülkiyyət Agentliyi) yaradılsın.

**3.** Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilsin.

**4.** Bu Sərəncamın 3-cü hissəsinə əsasən ləğv edilmiş Komitənin texniki tənzimləmə, standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə edilməsi sahəsində səlahiyyətləri Dövlət Agentliyinə, sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində səlahiyyətləri isə Əqli Mülkiyyət Agentliyinə verilsin.

**5.** "Azərbaycan Metrologiya İnstitutu", "Azərbaycan Standartlaşdırma İnstitutu" və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxslərin təsisçilərinin səlahiyyətlərini Dövlət Agentliyi həyata keçirsin.

**6.** Əqli Mülkiyyət Agentliyində təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

*6.1.* Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1. Əqli Mülkiyyət Agentliyinin nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

6.1.2. icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

6.1.3. Əqli Mülkiyyət Agentliyinin yenidən təşkili və ləğv edilməsi;

*6.2.* Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

6.2.1. strukturun, işçilərin say həddinin və illik maliyyə hesabatlarının təsdiq edilməsi;

6.2.2. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

6.2.3. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

*6.3.* Əqli Mülkiyyət Agentliyinə:

6.3.1. inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.

**7.** Əqli Mülkiyyət Agentliyi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək, Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi və Patent və Əmtəə Nişanları Mərkəzi öz fəaliyyətlərini davam etdirsinlər.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*8.1.* Dövlət Agentliyinin əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*8.2.* Əqli Mülkiyyət Agentliyinin nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*8.3.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*8.4.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*8.5.* Bu Sərəncamın 4-cü hissəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin balansındakı əmlakın müvafiq olaraq Dövlət Agentliyinin və Əqli Mülkiyyət Agentliyinin (dövlət qeydiyyatına alındığı gündən sonra) balansına verilməsini bir ay müddətində təmin etsin;

*8.6.* Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin balansındakı əmlakın Əqli Mülkiyyət Agentliyi dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Əqli Mülkiyyət Agentliyinin balansına verilməsini təmin etsin;

*8.7.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*8.8.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**9.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2018-ci il.**

# Prezident İlham Əliyev paytaxta gətirilən yeni metro qatarlarında yaradılan şəraitlə tanış olub

(əvvəli 1-ci səhifədə)

Bundan əlavə, videotəsvirin videomüşahidə mərkəzinə ötürülməsi də nəzərə alınır. Maşinist kabinəsi maşinistin sayıqlığına nəzarət edən texniki vasitələr və intellektual dəstək sistemləri ilə təchiz edilib. İdarəetmə sistemlərinin optimallaşdırılması, yerləşdirilməsi və pult üzərində əksolunması bir qrup maşinistlə aparılan müzakirələrdən sonra işlənib. Qatarda, həmçinin məlumatın yığılması, saxlanması və maşinist monitoruna ötürülməsini nəzərdə tutan özünüdiaqnostika sistemi tətbiq edilib. Maşinist kabinəsinin sahəsi də 15 faiz artırılıb.

Prezident İlham Əliyev yeni qatarla metronun "İçərişəhər" stansiyasından "Nəriman Nərimanov" stansiyasına getdi.

Qatarda vaqonlararası birbaşa keçidin təmin edilməsi ilə onun konstruksiya tutumu sələfləri ilə müqayisədə 15 faiz çoxdur. Vaqonlararası keçidin olması bütün qatar boyunca sərnişinlərin bərabər paylanmasını, sərnişinlərin









yerləşmə sahəsini genişləndirməklə onların rahat daşınmasını və təhlükəsizliyini təmin edir. Vaqon qapıları əvvəlki nümunələrlə müqayisədə 12 faiz enlidir. Qapıların açılıb-bağlanma sürəti aşağı olduğundan və qapı arasında qalmaq təhlükəsinə qarşı sistemin mövcudluğu sərnişinlərin təhlükəsizliyini artırır. Qapıların yanlarında onların bağlanması barədə sərnişinlərə xəbərdaredici işıq indikatorları quraşdırılıb. Tambursuz konstruksiya istilik izolyasiyasının yüksək məhsuldarlığını təmin edir ki, bu da öz növbəsində, havanın bütün qatarda bərabər paylanmasına şərait yaradır. Vaqonlarda mükəmməl istilik, salonda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi sistemləri mövcuddur.

Yeni konstruksiyalı səsboğucu ilə təmin edilmiş təkərlərdən istifadə olunduğu üçün qatarlar səssiz və rəvan hərəkət edir. Bunun hesabına vaqonlarda sərnişinlərin rahatlığı təmin olunur. Yeni gətirilən vaqonların çəkisinin az olması qatarın yola təsirini azaldır ki, bu da səs-küyün səviyyəsinin minimuma endirilməsi ilə nəticələnir. Vaqonlarda ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar, o cümlədən iri yüklər, uşaq arabaları üçün hissələr nəzərdə tutulub, sürahilər sərnişin sıxlığı da nəzərə alınaraq layihələndirilib, onların sayı 30 faiz artırılıb.



İstifadə olunan diodlu lampalar vaqonlarda salonun işıqlandırılmasını tənzimləməyə, həmçinin rəng çalarlarının dəyişməsinə imkan verir. İşıq diodlu cihazların tətbiqi elektrik enerjisi sərfiyatını 50 faiz azaldır, onların istismar müddətini isə 75 faiz artırır. Qatarın istehsalında müasir materiallardan istifadə olunduğu üçün onun uzun müddət açıq xətlərdə belə istismarını mümkün edir.

Dövlətimizin başçısına metropoliten xətlərinin konseptual inkişaf sxemi barədə məlumat verildi.

Son dövrlərdə görülən işlərin nəticəsidir ki, qatarların əsaslı təmiri əvvəllər xarici ölkələrdə həyata keçirilirdisə, hazırda bu işlər "Nərimanov" elektrik deposunda yüksək standartlara cavab verən Qatarların Əsaslı Təmiri Sahəsində icra edilir. Depo ərazisində mexaniki və digər sahələrin bir yerdə olacağı yeni zonanın yaradılması da nəzərdə tutulur ki, burada da bir çox ehtiyat hissələri və avadanlıqları istehsal ediləcək. Deponun infrastrukturu və hərəkətin idarəolunması sistemləri müasir tələblərə cavab verən texnologiyalarla təchiz edilib.



Onu da deyək ki, Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlar bu gündən sərnişinlərin ixtiyarına verildi. Yüksək tələblərə cavab verən yeni qatarlar mütərəqqi texnologiya ilə təchiz olunmaqla müasir idarəetmə sisteminə malikdir. Belə qatarların alınması Bakı Metropoliteninin qatar parkının yenilənməsi istiqamətində atılan mühüm addım olmaqla yanaşı, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin etmək baxımından da böyük rol oynayır.

**AZƏRTAC**

## Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında bir sıra idxal-ixrac əməliyyatları üzrə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi məqsədəuyğun hesab edilsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə birgə nəzarətlə əhatə olunacaq prosedurların siyahısına və mexanizminə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 aprel 2018-ci il.**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, qardaşım İlham Heydər oğlu Əliyev.

Zati-alinizin yenidən Prezident seçilməyi münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə ən gözəl təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının xalqına isə daha yüksək inkişaf və firavanlıq arzu edirəm.

Bu xoş fürsətdən istifadə edərək bildirirəm ki, qardaş ölkələrimizi və xalqlarımızı bir-birinə sıx bağlayan əlaqələri yüksək dəyərləndirir və onu bütün sahələrdə gücləndirmək və inkişaf etdirməyə çalışırıq.

*Zati-alinizə hörmət və ehtiramla, Qardaşınız,*

**Salman bin Əbdüləziz Al Səud**
**İki Müqəddəs Ocağın Xadimi,**
**Səudiyyə Ərəbistanı Kralı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Yenidən dost Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizi şəxsən öz adımdan, Bəhreyn xalqı və hökuməti adından səmimi qəlbdən təbrik edirəm. Bu seçim ölkəni daha parlaq gələcəyə aparan liderlik bacarığınızı qiymətləndirən xalq tərəfindən Sizə göstərilən yüksək etimadı nümayiş etdirir.

Ali dövləti vəzifənizi yerinə yetirməkdə, xalqın yüksəliş və inkişaf amallarını həyata keçirmək işində Sizə uğurlar diləyirəm.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına inkişaf və rifah arzulayıram.

Yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Həməd bin İsa Al Xəlifə**
**Bəhreynin Kralı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati aliləri,

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Laos xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram və Zati-alinizə, möhkəm cansağlığı, xoş günlər və ölkənizi tərəqqiyə aparan yolda uğurlarınızın davamlı olmasını arzulayıram.

İnanıram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan arasında mövcud olan ikitərəfli münasibətlərimiz və əməkdaşlığımız ölkələrimizin mənafeyi naminə, eləcə də davamlı inkişafın təmin olunması məqsədilə sülhə və beynəlxalq əməkdaşlığa nail olmaq üçün bundan sonra da genişlənəcək və möhkəmlənəcək.

Zati-aliləri, Sizə olan ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Bounyanq Voraçit**
**Laos Xalq Demokratik Respublikasının**
**Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İslam Əməkdaşlıq Təşkilatı adından ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf hissi duyuram.

Cənab Prezident, seçicilərin mütləq əksəriyyətinin Zati-alinizə səs verməsi onların Sizin rəhbərliyinizə və Azərbaycanın gələcəyi ilə bağlı siyasətinizə bəslədiyi etimadın təcəssümüdür. Əminəm ki, Siz müdrikliyiniz və zəngin təcrübəniz sayəsində ali dövləti fəaliyyətinizi Azərbaycan xalqının əmin-amanlığı, birliyi və tərəqqisi naminə bundan sonra da uğurla davam etdirəcəksiniz.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək, bir daha bildirirəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə münasibətlərini yüksək qiymətləndirir. Biz Azərbaycan ilə ikitərəfli əməkdaşlığımızı bundan sonra da möhkəmləndirmək istiqamətində səylərimizi əsirgəməyəcəyik.

Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

**Yusif bin Əhməd əl-Useymin**
**İslam Əməkdaşlıq Təşkilatının baş katibi**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasına daha sürətli inkişaf və onun xalqına rifah arzu edirəm.

Zati-aliləri, Sizə dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud**
**Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi,**
**Baş nazirin müavini, müdafiə naziri**

# SƏMİMİ TƏBRİKLƏR

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri,

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm və bu ali dövləti vəzifədə mühüm fəaliyyətin həyata keçirilməsinin davam etdirilməsində Sizə uğurlar arzulayıram.

Azərbaycan Parlamenti ilə Parlamentlərarası İttifaq arasında genişlənən əməkdaşlığın dəstəklənməsinə xidmət etmiş Azərbaycana ötən il çox səmərəli səfərim zamanı Sizinlə görüşməkdən hədsiz məmnun oldum. Çox şadam ki, bu əlaqələrin möhkəmlənməsi ilə bağlı istək artmaqda davam edəcəkdir.

Zati-aliləri, bir daha səmimi təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Martin Çunqonq**
**Parlamentlərarası İttifaqın baş katibi**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizə "TEKFEN İnşaat" şirkəti adından və şəxsən öz adımdan ən xoş arzularımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Bu qələbə Azərbaycan xalqının Zati-alinizə bəslədiyi sonsuz etimadın göstəricisidir. Azərbaycan xalqı bir daha sabitliyə, inkişafa, tərəqqiyə, müstəqil siyasətinizə səs verərək azad və demokratik Azərbaycan Respublikasının xoşbəxt və firavan gələcəyini təmin etdi.

Sizin siyasətiniz nəticəsində uğurla inkişaf edən, ildən-ilə müasirləşən, beynəlxalq nüfuzunu gündən-günə artıran, xarici sərmayələr üçün açıq olan Azərbaycan Respublikasında nümunəvi sabitlik şəraitində 23 ildən artıq bir müddətdə irimiqyaslı layihələr həyata keçirməkdən qürur duyan bir şirkət kimi gələcəkdə də dost və qardaş Azərbaycanın inkişafına xidmət etməyə hazır olduğumuzu bildiririk.

Möhtərəm cənab Prezident, Sizi yenidən ali dövləti vəzifəyə seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının əmin-amanlığı, tərəqqisi, rifahı naminə qarşıya qoyduğunuz məqsədlərə nail olmaq yolunda böyük uğurlar və əzmkarlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

**Levent Kafkaslı**
**Türkiyənin "TEKFEN İnşaat" şirkətinin prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi və xalqınızı təbrik edirik.

Dost və qardaş Azərbaycan xalqı aprelin 11-də Sizi böyük səs çoxluğu ilə yenidən Prezident seçməklə birliyə, bərabərliyə, inkişafa və sabitliyə dəstəyini nümayiş etdirdi.

Azərbaycanımız Qafqazın parlayan ulduzu olan bir ölkədir. İqtisadi, sosial, mədəni sahələrdə mötəbər tədbirlərə uğurla ev sahibliyi edir. Ölkənin, demək olar, hər guşəsi yenidən qurulmaqdadır. Azərbaycan dünya ölkələri arasında layiqli yer tutaraq, nüfuz sahibi olan dövlətə çevrilib. Azərbaycanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin siyasətinin, cənab Prezident, Sizin rəhbərliyinizlə davam etdirilməsi sayəsində mümkün olub.

Biz ölkənizdə keçirilən seçkilərin nəticəsini Türkiyədə "bir millət, iki dövlət" olaraq böyük sevinc hissi ilə qarşıladıq. Sizə və qardaş Azərbaycan xalqına bu qələbə münasibətilə bir daha səmimi təbriklərimizi çatdırır və uğurlarınızın davamlı olmasını arzulayırıq.

*Hörmətlə,*

**Bilal Dündar**
**Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanda keçirilən Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi Polşadakı Varşava Azərbaycanlıları Birliyinin çoxsaylı üzvləri adından təbrik edirik.

Sizin həyata keçirdiyiniz siyasətin nəticəsi göz önündədir. Ölkəmizin inkişafı, regionda artan nüfuzu, əhalinin sosial vəziyyətinin və firavanlığının ildən-ilə yaxşılaşması, Azərbaycanın hərbi qüdrətinin keçmiş dövrlə müqayisə edilməyəcək dərəcədə güclənməsi şəxsən Sizin uğurlu siyasətinizin nəticəsidir.

Hazırda ölkəmizin turizm potensialını reallaşdıraraq Vətənimizin tanıdılması üçün misilsiz işlər görürsünüz. Xüsusən, Azərbaycana gələn xarici ölkə vətəndaşları üçün "ASAN Viza" sisteminin tətbiqində göstərdiyiniz qətiyyəti qeyd etməyi özümüzə borc bilirik. Biz də, öz növbəmizdə, Polşada bacardığımız qədər ölkəmizi təbliğ edir və turizm məsələsinə xüsusi önəm veririk.

Azərbaycanda istər iqtisadi-sosial, istərsə də təhlükəsizlik sahələrində sabitlik hökm sürür. Yaxın və uzaq qonşularımız uzun illərdir qeyri-sabit həyat sürdükləri halda, Azərbaycan Respublikasının vətəndaşları ana vətənimizdə əmin-amanlıq şəraitində yaşayırlar. Buna görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm Prezident, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrini yüksək qiymətləndiririk və Avropada yaşayan azərbaycanlılar olaraq bu əlaqələrin inkişafına hər cür dəstək verməyə hazırıq.

Cənab İlham Əliyev, Sizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı arzulayır və bu şərəfli işinizdə uğurlarınızın daimi olmasını diləyirik.

*Dərin hörmətlə,*

**Rəsul Məmmədov**
**Varşava Azərbaycanlıları Birliyinin sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Braziliya Milli Konqresinin Deputatlar Palatasında Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri olaraq demokratik və azad seçki şəraitində yenidən Prezident seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Azərbaycan Respublikasına və xalqına dərin hörmətimi və heyranlığımı bildirirəm.

Zati-aliləri, yeni Prezidentlik dönəmində Sizə müvəffəqiyyətlər və nailiyyətlər arzulayıram. Əminəm ki, bu dövr Azərbaycan üçün daha da uğurlu olacaqdır.

Azərbaycanın mühüm beynəlxalq aktor olduğunu bir daha təsdiqləyərək bildirirəm ki, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri kimi mən Sizin və Azərbaycan hökumətinin ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə yönəlmiş səylərinizi hər zaman dəstəkləməyə hazıram.

*Ən xoş arzularla,*

**Klaudio Kajado**
**Braziliya Milli Konqresinin Deputatlar Palatasında Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, federal deputat**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimlə yanaşı, Zati-alinizə möhkəm cansağlığı və uğurlar, qardaş xalqınıza isə rifah və tərəqqi arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bolqarıstan-Azərbaycan Ticarət və Sənaye Palatasının üzvləri adından Sizi əmin edirəm ki, ikitərəfli əməkdaşlığımızı möhkəmləndirmək və ölkələrimiz arasında işgüzar münasibətlərin inkişafı üçün əlverişli şərait yaratmaq istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

*Hörmətlə,*

**Dimitar Bratanov**
**Bolqarıstan-Azərbaycan Ticarət və Sənaye Palatasının sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zali-alinizə ən səmimi təbriklərimi çatdırır, Sizə ali dövləti vəzifənizdə uğurlar diləyirəm.

Əminik ki, Prezidentliyinizin yeni dönəmində də qardaş Azərbaycanın sabitliyinə və inkişafına, xalqınızın xoşbəxtliyinə və rifahına böyük töhfələr verəcəksiniz.

İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət qurumu olan Mərkəzimiz ilə Azərbaycandakı akademik qurumlar və mədəniyyət müəssisələri arasında davam edən əməkdaşlığın Zati-alinizin liderliyi ilə daha da möhkəmlənəcəyinə inanıram.

Bu xoş fürsətdən istifadə edərək bir daha təbriklərimi çatdırır, bölgədə sülhün, əmin-amanlığın və sabitliyin təmin olunması naminə həyata keçirdiyiniz siyasətin davamlı olmasını diləyirəm

*Dərin ehtiramla,*

**Dr. Halit Eren**
**İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRCİCA) baş direktoru**
**Türkiyə Respublikası, İstanbul şəhəri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident İlham Əliyev.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, ali dövləti vəzifənizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**Leyla Süleymanova**
**Gürcüstanın Azərbaycanlı Qadınlar İttifaqının sədri,**
**Tbilisi şəhəri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizi Gürcüstanın Qardabani Bələdiyyəsinin "Dostluq Mərkəzi"nin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**Etibar Nəbiyev**
**Gürcüstanın Qardabani Bələdiyyəsinin "Dostluq Mərkəzi"nin direktoru**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Zati-alinizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyi münasibətilə Sizə ən səmimi təbriklərimi yetirməkdən xoşbəxtlik duyuram.

Şərq və Qərbin qədim mədəniyyətlərinin qovuşduğu gözəllik təcəssümü olan Bakı şəhərində "İslam Həmrəyliyi İli"nin yekunlarına həsr olunmuş konfransda iştirakımdan bəri Sizin qələbənizə inanırdım.

Sizin əzəmətli ölkənizdə seyr etdiyim tərəqqi və əmin-amanlıq məni heyran qoydu.

Sizin rəhbərliyiniz dövründə Azərbaycan xalqının Zati-alinizə qarşı duyduğu sevgi və bağlılığın yüksək dərəcədə olduğunu görməmək mümkün deyil.

Bu gözəl imkandan istifadə edərək, Zati-aliniz qarşısında, xalqlarımız arasındakı qardaşlıq tellərinin və ikitərəfli əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə, iki qardaş ölkələrimiz arasındakı doğma münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edəcək bütün səylərin davam etdiriləcəyini bir daha təsdiqləyirəm.

"İslam Həmrəyliyi İli" ilə bağlı yekun konfrans zamanı Zati-alinizlə olan görüşümü heç vaxt unutmayacağam, Azərbaycan xalqının göstərdiyi xüsusi qonaqpərvərlik, nümayiş etdirdiyi nəcabət və gözəl ev sahibliyi heç zaman yaddaşımdan silinməyəcək.

Xalqlarımız, ölkələrimiz və xüsusən də parlamentlərimiz arasındakı münasibətlərin daha da möhkəmlənməsi üçün var qüvvəmlə çalışacağam.

Ulu və Qadir Allahımızdan Zati-alinizə və Azərbaycan xalqına daha çox tərəqqi və rifah diləyir, qardaş ölkənizə təhlükəsizlik, sabitlik və sülh arzulayıram.

**Professor Dr.Üsəmə əl-Abd**
**Misir Ərəb Respublikası Nümayəndələr Palatasının Din və Vəqflər İşləri Komitəsinin sədri, Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və ali dövləti vəzifənizin icrasına başlamağınız münasibətilə təbrik edim.

Prezident seçkilərində inamlı qələbəniz Sizin yürütdüyünüz siyasəti Azərbaycan xalqının dəstəklədiyini təsdiq edir.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**Oleq Siyenko**
**"Rus mis şirkəti" Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Bu yaxınlarda keçirilən prezident seçkilərində parlaq qələbəniz münasibətilə ən səmimi təbriklərimizi qəbul edin. Seçkilərin nəticələri göstərdi ki, Azərbaycan xalqı ölkənin hansı yolla gedəcəyinə və bu yolda ona kimin rəhbərlik edəcəyinə əmindir.

Əminik ki, Sizin ölkəniz bundan sonra da uğurla inkişaf edəcək, vətəndaşlarınız sülh və əmin-amanlıq şəraitində yaşayacaqlar.

Bizim Akademiya hər zaman Sizinlə olacaq, ölkələrimiz arasında əməkdaşlığın vətəndaşlarımızın rifahı naminə gündən-günə möhkəmlənməsinə səy göstərəcək.

Möhtərəm cənab Prezident, Tanrı Sizi qorusun, Sizə möhkəm cansağlığı, səadət və firavanlıq nəsib etsin.

*Hörmətlə,*

**Serbiya Kral Akademiyası Şurasının üzvləri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Prezident.

Ümumxalq etimadını qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Moldova Azərbaycanlıları Konqresi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Sizin bu parlaq qələbəniz ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təntənəsi, doğma Azərbaycanımızın yekdilliyinin təcəssümü olmaqla, eyni zamanda, beynəlxalq səviyyədə siyasi nüfuzunuzun sübutudur.

Əminik ki, ümummilli dəyərlərimizə xidmət edən fəaliyyətinizlə doğma Vətənimizin ərazi bütövlüyünün tam bərpasına nail olacaq, yeni-yeni uğurlarınızla bizi daha da sevindirəcəksiniz.

Cənab Prezident, Moldovada yaşayan azərbaycanlılar adından Sizi bir daha ürəkdən təbrik edirəm.

*Dərin hörmət və ehtiramla,*

**Vüqar Novruzov**
**Moldova Azərbaycanlıları Konqresinin sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bildiyiniz kimi, "Total" Şirkətlər Qrupu Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birgə əməkdaşlıq edərək Azərbaycanın neft və qaz sənayesinin uzunmüddətli inkişafına töhfə vermək niyyətindədir.

Bu xoş imkandan istifadə edərək, "Total" Şirkətlər Qrupu adından və şəxsən öz adımdan yeni prezidentlik dönəmində Sizə uğurlar arzulayıram.

*Hörmətlə,*

**Patrik Puyane**
**"Total" Şirkətlər Qrupu İdarə Heyətinin sədri, baş icraçı direktoru**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident İlham Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik.

Bundan sonrakı dövrdə də ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyi inamı ilə dərin ehtiramımı çatdırıram.

*Hörmətlə,*

**Burhanəddin Kocamaz**
**Türkiyə Respublikasının Mersin Böyükşəhər Bələdiyyəsinin sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi, ailənizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edək.

Son onilliklər ərzində Azərbaycan dinamik, dayanıqlı, davamlı inkişaf edib və möhkəmlənib. Əhalinin rifahı yaxşılaşıb, dövlət hakimiyyəti və idarəetmə sistemi möhkəmlənib, təhsil və səhiyyənin səviyyəsi yüksəlib. Dövlətin siyasi, ictimai, iqtisadi həyatının digər sahələrində böyük irəliləyişə nail olunub.

Qonşu və dost Azərbaycanın uğurlarını biz sevinc və iftixar hissi ilə izləyir, şəxsən Sizə və bütün dost Azərbaycan xalqına yeni-yeni uğurlar, firavanlıq və əmin-amanlıq arzulayırıq. Ölkənizin möhkəmlənməsində, müasir, güclü və nüfuzlu dövlətə çevrilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini yüksək dəyərləndirir və unutmuruq. Qafqaz regionunun inkişafına və ölkələrimizin dünya xəritəsində geosiyasi mövqe tutmasına Sizin ulu öndər Heydər Əliyevin verdiyi töhfələri minnətdarlıq və ehtiramla xatırlayırıq.

Hörmətli İlham Heydər oğlu, çox sağ olun ki, Siz öz xalqının və Vətəninin sədaqətli oğlu olan atanızın tarixi irsini ləyaqət və iftixarla davam və inkişaf etdirirsiniz.

Arzu edirik ki, Azərbaycan layiq olduğu sülhə, tərəqqiyə və dövlətin ərazi bütövlüyünün bərpasına nail olsun. Gürcüstanla Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsinə bacardığımız qədər töhfə verməyə, ölkələrimizin iqtisadi potensialını möhkəmləndirməyə, Azərbaycanın getdikcə inkişaf edən iqtisadiyyatına investisiyalar cəlb etməyə və özümüz investisiya qoymağa hər zaman hazır olduğumuzu bildiririk.

Biz Azərbaycanı daha qüdrətli, vahid və firavan görmək istəyirik. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan yeni-yeni uğurlar qazanacaq və gələcəyə inamla addımlayan geniş real imkanları olan ölkə kimi qalacaq.

*Ən xoş arzularla və dərin hörmətlə,*

**David Bejuaşvili**
**Gürcüstanın "Georgian İndustrial Group" Şirkəti Direktorlar Şurasının sədri**
**Gela Bejuaşvili**
**"Georgian İndustrial Group" Şirkəti Direktorlar Şurasının üzvü**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə prezidentliyinizin yeni dönəmində uğurlar arzulayıram.

Sizin yürütdüyünüz siyasət sayəsində Azərbaycan dövləti yeni inkişaf səviyyəsinə yüksəlib. İnanıram ki, tez bir zamanda Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə də nail olacaqsınız. Xaricdə yaşayan bir azərbaycanlı kimi mən və rəhbərlik etdiyim Azərbaycan-Niderland "Odlar yurdu" cəmiyyətinin üzvləri Sizi dəstəkləyir və inanırıq ki, Azərbaycanın sosial, iqtisadi, maliyyə, hərbi, müdafiə və digər sahələrdə inkişafı naminə fəaliyyətinizi uğurla davam etdirəcəksiniz.

Möhtərəm cənab Prezident, Sizə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**Firəngiz Bağırova**
**Azərbaycan-Niderland "Odlar yurdu" Cəmiyyətinin sədri**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Qırğız Respublikasındakı inquş diasporu adından səmimi qəlbdən təbrik edirəm.

Sizin qələbəniz şəxsən Zati-alinizə və dövlətin fəaliyyətinin bütün sahələrinin hərtərəfli inkişafı və möhkəmlənməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin güclənməsi, regional və qlobal təhlükəsizliyin təmin edilməsi üçün həyata keçirdiyiniz siyasi xəttə ümumxalq etimadının parlaq təsdiqidir.

Əminəm ki, Qırğızıstanla Azərbaycan arasında əməkdaşlıq ölkələrimizin rifahı naminə tərəfdaşlıq ruhunda davam etdiriləcək. Yürütdüyünüz daxili və xarici siyasət əminlik yaradır ki, Sizə xas olan müdriklik və qətiyyət Azərbaycan xalqının rifahını daha da yaxşılaşdıracaq və onun başqa xalqlarla daim mehriban münasibətlərinin möhkəmlənməsinə kömək edəcək.

Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə müvəffəqiyyət, dost Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**Əlixan Xamxoyev**
**Qırğızıstan Xalqları Assambleyası nəzdində inquş diasporunun sədri**

*Ziyafət Əsgərov:*

# Son 15 ildə qazandığımız nailiyyətlər Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə bağlıdır



**Aprelin 18-də Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi proqram xarakterli nitq son 15 ilin yekunu və gələcəyə yönəlmiş bir "yol xəritəsi" idi.**

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin birinci müavini, parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib.

Ziyafət Əsgərov bildirib ki, bu gün Azərbaycan inkişafın ən yüksək səviyyəsindədir. İrimiqyaslı layihələrin reallaşdırılması istiqamətində böyük tədbirlər həyata keçirilir. Azərbaycanın son 15 il ərzində həyata keçirdiyi layihələr, neft-qaz sənayesində əldə olunan uğurlar, iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatlar, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri və sair - bütün bunlar inkişafdan xəbər verir. Dövlətimizin başçısı nitqində Azərbaycanın kosmik qrupa daxil olan ölkə olduğunu xüsusi vurğuladı.

Milli Məclis sədrinin birinci müavini qeyd edib ki, ötən illər ərzində Azərbaycan beynəlxalq münasibətlər sahəsində də böyük nailiyyətlər qazanıb. Azərbaycan 155 dövlətin dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvü seçilib. Bu, o deməkdir ki, Azərbaycan bu gün regionun ən nüfuzlu dövlətlərindən biridir. Azərbaycan bu gün, sözün həqiqi mənasında, öz təhlükəsizliyini yüksək səviyyədə qoruyan, müdafiəsini təmin edən bir dövlətdir. 2016-cı ilin Aprel hadisələri onu göstərdi ki, Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı istənilən an azad etməyə qadirdir. Bu gün ölkəmiz inkişafın çox yüksək mərhələsindədir, regionda Azərbaycansız qlobal məsələlərin həlli demək olar ki, mümkün deyil.

Ziyafət Əsgərov bildirib ki, Prezident İlham Əliyev nitqində gələcəkdə görüləcək işlər haqqında da ətraflı danışdı və "yol xəritəsi"ni müəyyən etdi. Sözsüz ki, irəlidə Azərbaycanın görəcəyi işlər var. İlk növbədə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsi bizim qarşımızda duran ən əsas amildir. Bununla bağlı Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var. Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar çox təəssüf ki, bu günə qədər hələ də yerinə yetirilməyib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, çox təəssüf ki, bir sıra hallarda beynəlxalq hüquq işləmir. Belə çıxır ki, beynəlxalq hüquq güc hüququdur. Yəni, kimin gücü varsa, o da haqlıdır və kimin gücü varsa, o nə istəyirsə edir. Əgər dünya güc ilə idarə olunacaqsa, onda beynəlxalq hüquq nəyə lazımdır? Beynəlxalq hüququn normaları kimə lazımdır? BMT-nin Nizamnaməsi kimə lazımdır? Amma bu reallıqla barışmaq lazımdır. Reallıq gücdür. Ona görə də dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan gündən-günə gücünü daha da artırmalıdır. Çox təəssüf ki, dünyada beynəlxalq hüquqdan çox gücə hörmət edirlər. Buna görə biz daha da güclü olmalıyıq.

**AZƏRTAC**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində son 15 il ərzində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzində olmuşdur. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20 aprel tarixli sayımızda)*

**19 aprel 2018-ci il**



○ Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisini qəbul edib.



○ Prezident İlham Əliyev NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

○ Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti Zati-aliləri cənab Corc Herbert Uoker Buşa xanım Barbara Buşun vəfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

*(davamı növbəti saylarımızda)*

*Vyetnamın VİTV kanalı:*

# Prezident İlham Əliyevin seçkilərdə qələbəsi xalqın onun siyasətinə verdiyi qiymətin nəticəsidir

**Azərbaycanda keçirilmiş prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsi bir çox ölkələrdə olduğu kimi, Vyetnamda da diqqəti cəlb edib.**

AZƏRTAC xəbər verir ki, Vyetnamın milyonlarla tamaşaçı auditoriyasına malik VİTV televiziya kanalı ölkəmizdə keçirilmiş seçkilərlə bağlı geniş reportaj yayımlayıb, həmçinin Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanovdan müsahibə alıb. Bildirilib ki, seçkilərdə İlham Əliyev 86 faizdən çox seçici səsi qazanaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. Bu inamlı qələbə İlham Əliyevin son 15 il ərzində ölkənin davamlı inkişafına yönələn siyasətinə Azərbaycan xalqının verdiyi qiymətin nəticəsidir.

Reportajda bir çox yerli və beynəlxalq müşahidəçilərin izlədiyi seçkilərin tam şəffaf keçirildiyi bildirilib. Bu inamlı qələbənin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunduğu 2018-ci ildə baş verməsi onu Azərbaycan xalqı üçün daha əlamətdar edir.

VİTV-də yayımlanan reportajda qeyd olunub ki, İlham Əliyevin yeni prezidentlik dövrü Azərbaycanın tərəqqisinin daha yüksək səviyyəyə çatdırılması, ölkənin beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, digər dövlətlər, o cümlədən Vyetnam ilə qarşılıqlı əməkdaşlığın inkişafı üçün imkan yaradacaq.

Azərbaycanda baş verən siyasi proseslərə Vyetnam xalqının maraq göstərdiyini bildirən VİTV-nin jurnalisti bu qələbənin əsas səbəbini öyrənmək üçün Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanova müraciət edib. Diplomat bildirib ki, illərlə xalqın




etimadına arxalanan və hökumət-xalq birliyinin siyasətinin əsasını təşkil edən Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın güclü inkişafına, xalqımızın rifahının yüksəlməsinə, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin əhəmiyyətli dərəcədə güclənməsinə gətirib çıxarıb. Bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanın müstəqil siyasət yürütdüyünü, ölkə siyasətinin məhz milli maraqlar əsasında həyata keçirildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan xalqı İlham Əliyevə səs verməklə özünün sabit, təhlükəsiz və rifahlı gələcəyinə səs verib. Prezident İlham Əliyevin qələbəsi Azərbaycanın qələbəsidir.

Reportajda Ermənistanın Azərbaycana qarşı davam edən işğalçı siyasətindən də söz açılıb. Azərbaycan torpaqlarının işğalı və onun ağır nəticələri barədə məlumat verən səfir münaqişə ilə bağlı bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin Ermənistan tərəfindən icra edilməməsinin problemin bu günədək həll olunmamasının əsas səbəbi kimi göstərib. Bildirilib ki, Azərbaycan xalqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlayır və məhz onun münaqişəni həll etmək iqtidarında olduğuna inanır.

**AZƏRTAC**

*NATO generalı:*

# Azərbaycan Alyansın etibarlı tərəfdaşıdır

**Aprelin 20-də Azərbaycan Respublikasının müdafiə naziri vəzifəsini icra edən, general-polkovnik Zakir Həsənov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı, general Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov Şimali Atlantika Alyansı ilə hərbi əlaqələrin inkişaf etdiyini vurğulayaraq, Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıqdan, o cümlədən Ordumuzun müxtəlif proqramlar çərçivəsində fəaliyyətindən, Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına verilən töhfədən danışıb. Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Z.Həsənov vurğulayıb ki, Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin müxtəlif xarici dövlətlərə, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə səfərləri və həmin ölkələrdə onların qəbul edilməsi münaqişənin nizamlanmasında ikili standartların tətbiq edilməsinə gətirib çıxarır ki, bu da yolverilməzdir. NATO-nun Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı mövqeyini yüksək qiymətləndirən Z.Həsənov Alyansın bundan sonra da bu istiqamətdə səylərini davam etdirəcəyinə əminliyini bildirib.

Həmçinin Ermənistandan nüvə komponentləri qaçaqmalçılığının həyata keçirildiyini xatırladaraq, bunun təkcə regionun deyil, eyni zamanda, daha geniş miqyasda təhlükəsizliyə ciddi təhdid təşkil etdiyi vurğulanıb.

Ölkəmizin sülhsevər siyasət yürütdüyünü və beynəlxalq terrorizmə qarşı daim mübarizə apardığını bildirən general-polkovnik Z.Həsənov bəzi xarici ölkələr tərəfindən Azərbaycana silah satışına əsassız məhdudiyyət qoyulduğunu da qonağın diqqətinə çatdırıb.

General K.Skaparotti Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

Qonaq Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşün Bakıda keçirilməsi üçün göstərilən qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

**AZƏRTAC**

# Alternativ və bərpaolunan enerji mənbələri sahəsinə özəl sektorun cəlbinin perspektivləri müzakirə edilib

**Alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və bu sahəyə özəl sektorun cəlbinin perspektivləri ilə bağlı müzakirələr aparılıb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı tərəfindən verilən tapşırıqların icrası ilə bağlı nazirlikdə kollegiya iclası keçirilib. Nazirliyin şöbələri və tabeliyindəki qurumların, eləcə də "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəristiliktəchizat" ASC, SOCAR və "Azəriqaz" İB-nin rəhbər və səlahiyyətli nümayəndələrinin iştirakı ilə keçirilmiş iclasda energetika naziri vəzifəsini icra edən Pərviz Şahbazov dövlət başçısının bir çox sahələr kimi enerji sektorunda da qarşıdakı dövr üzrə mühüm vəzifələr müəyyənləşdirdiyini diqqətə çatdırıb.

Pərviz Şahbazov bildirib ki, ilin sonuna kimi ölkədə qazlaşdırmanın 95 faizə çatdırılması, "Şimal-2" elektrik stansiyasının tikintisinin yekunlaşdırılması, ölkənin inkişafını, əhali artımını, sənayeləşmə prosesini nəzərə alaraq, 5-10 il sonra daxili istehlaka tələbatın proqnozlaşdırılması, xarici enerji bazarlarının təhlili nəticəsində ixrac potensialının müəyyən edilməsi, alternativ və bərpaolunan enerjinin istehsalı sahəsinin təhlili əsasında külək, günəş və su elektrik stansiyalarının tikintisi istiqamətlərində tapşırıqlar verilib. Sadalanan istiqamətlər üzrə mövcud vəziyyətin və imkanların təhlili əsasında birgə tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb, tapşırıqların nəzərdə tutulduğu vaxta qədər icrasının mümkünlüyü ifadə edilib.

Sonra "Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev ölkədə generasiya gücləri, orta və uzunmüddətli inkişaf planları, elektrik enerjisinin ixrac perspektivləri, eləcə də "Şimal-2" elektrik stansiyasının tikintisinin gedişatı ilə bağlı məruzə edib.

Daha sonra isə "Azərişıq" ASC-nin sədri Baba Rzayevin ölkədə elektrik enerjisinin təminatı və elektrik şəbəkəsinin mövcud vəziyyəti, daxili istehlakın orta və uzunmüddətli inkişaf tendensiyası barədə məruzəsi dinlənilib. Alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və bu sahəyə özəl sektorun cəlbinin perspektivləri ilə bağlı müzakirələr aparılıb.

Bu günlərdə "Azərenerji" ASC şirkəti ilə İranın Enerjinin İstehsalı, Ötürülməsi və Paylanmasını İdarəetmə Şirkəti "TAVANİR" arasında elektrik enerjisinin alqı-satqısı üzrə müqavilənin imzalanması elektrik enerjisinin ixrac bazarının genişləndirilməsi tədbirlərindən biri kimi qiymətləndirilib.

İclasda, həmçinin ölkənin qazlaşdırılması çərçivəsində görülən işlərdən bəhs edilib. Qazlaşdırma layihələrinin həyata keçirilməsində dövlət dəstəyinin xüsusi rolu qeyd edilib.

Hazırda ölkədə əhali abunəçilərinin qaz təchizatı şəbəkəsi ilə əhatələnmə səviyyəsinin 93,9 faizə çatdırıldığını deyən SOCAR-ın vitse-prezidenti Rəhman Qurbanov bildirib ki, 2018-ci ildə regionların qazlaşdırılması proqramı müvafiq təkliflər üzrə hazırlanıb. Proqrama respublikanın regionlarında 42 inzibati rayon üzrə yaşayış məntəqələri və qəsəbələrinin qazlaşdırılması tədbirləri daxildir.

Müzakirələr zamanı qazlaşdırılması texniki-iqtisadi cəhətdən səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ mənbələrlə təminatı məsələsinə də toxunulub. Maye qazla təminat imkanları nəzərdən keçirilib.

Yekunda Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısının çıxışından irəli gələn vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün müvafiq tapşırıqlar verilib.

**AZƏRTAC**

*Kamran İmanov:*

# Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını ifşa edir

**Aprelin 20-də Bakıda Müəllif Hüquqları Agentliyinin (MHA) təşkilatçılığı ilə "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda Müəllif Hüquqları Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov UNESCO tərəfindən elan olunmuş 23 aprel - Dünya Kitab və Müəlliflik Hüququ Gününün hər il ölkəmizdə təntənə ilə qeyd edildiyini, bununla bağlı müxtəlif tədbirlərin keçirildiyini söyləyib. Bildirilib ki, "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusundakı builki konfrans ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr edilib.

Kamran İmanov vurğulayıb ki, ölkəmizdə həyat sürətlə dəyişir, Azərbaycan yeniləşir və qüdrətlənir. Bu uğurların təməlində innovativ, yeniliklərlə və islahatlarla zəngin, insanlara xidmət edən dövlət siyasəti durur. Ulu öndər Heydər Əliyevin uzaqgörən, gələcəyimizə yol açan fikir və düşüncələri bugünkü cəmiyyətimizin ən dəyərli əqli mülkiyyətinə, ictimai rəy və sərvətinə çevrilib. Tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər barədə izahını yox, onların üzərində qələbəsini tanıyır. Bu qələbəni Azərbaycanın nüfuzunun artmasında, dövlətimizin başçısı İlham Əliyevin son 15 ildə düşünülmüş, müasirləşdirilmiş davamçılıq siyasətinin nailiyyətlərində, yaradıcılıqla keçirilən varislik xəttində, xalqımızın Prezidentə olan dərin ehtiram və sevgisində görürük. Bu münasibəti "Əsl hakimiyyət yalnız insanlara xidmət etməklə əldə olunur" kəlamı ilə ifadə etmək mümkündür.

Diqqətə çatdırılıb ki, xalqımız bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşır. Ötən il Respublika Gününü qeyd edərkən Prezident İlham Əliyev çıxışında deyib: "...Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi... Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşır... Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra müstəqilliyimiz əlimizdən alındı. Əgər Azərbaycan dövlət müstəqilliyini qoruya bilsəydi, əminəm ki, bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, ən zəngin ölkələrdən biri olacaqdı. Ancaq xarici müdaxilə nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi!"

Müəllif Hüquqları Agentliyi İdarə Heyətinin sədri deyib ki, Xalq Cümhuriyyətinin süqutunda kommunist libası geyinmiş erməni millətçilərin - daşnakların əlinin olduğu heç kəsə sirr deyil. Məhz kifayət qədər güclü olmadığımız və erməni-daşnakların ərazi iddialarına son qoyacaqları barədə vədlərinə inandığımız üçün bir sıra ərazilərimiz o zaman ermənilərə verildi. Dövlətimizin başçısının dediyi kimi, "1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir". Bu gün Azərbaycan Prezidenti qüdrətimizə və iradəmizə əsaslanaraq bəyan edir ki, "Azərbaycan heç bir vaxt imkan verməyəcək ki, bizim tarixi torpaqlarımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti bizim torpaqlarımızda yaradılıbdır".





Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının qurultayında səsləndirdiyi fikirlərin əsasında haqq-ədalət, beynəlxalq hüquq və tarixi həqiqət durur: "...biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq... Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır... Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq...".

Tədbirdə Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunda məruzəsi dinlənilib.

MHA-nın İdarə Heyətinin sədri bildirib ki, bugünkü konfransın adı heç də təsadüfi seçilməyib. Ötən il "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-erməni qədimliyinin qurulma cəhdləri" mövzusunda konfrans keçirilib. Builki konfrans da onun davamıdır və hay-ermənilərin "Armeniya" adlanan əraziyə aid çoxlu sayda uydurmaları və bu ərazinin həqiqi sakinləri haqqında mövzuya həsr olunur. Bu məsələyə dair müxtəlif yanaşmaları birləşdirən bir danılmaz fakt vardır ki, o da "Armeniya" haqqındakı yanaşmaların bugünkü hay-ermənilərə heç bir aidiyyətinin olmamasıdır.

Qeyd etmək lazımdır ki, hay-erməni tarixşünaslığı haylara məxsus olmayan "armen/erməni" etnonimini və "Arminiya" adlı qədim toponimi mənimsəyərək, Türkmənçay müqaviləsinin (1828-ci il) bağlanmasından sonra "Şərqi və Qərbi Ermənistan"ın, hətta uydurma "böyük Ermənistan"ın mövcudluğuna dair tezisləri fəal şəkildə gündəmə gətirməyə başlayıb. Ermənilərin tirajladığı "Şərqi Ermənistan" bizim tarixi torpaqlarımız - İrəvan xanlığının ərazisi və sonradan hay-ermənilərin könlünü almaq üçün Azərbaycandan qoparılıb Ermənistana verilmiş Zəngəzur qəzası və 1922-ci ildə Göyçə (Şərur-Dərələyəz) torpaqlarıdır, torpaqsız Sovet Ermənistanı məhz bu cür Azərbaycan əraziləri hesabına yaradılıb. Sonradan sovet tarix elminin dəstəyi ilə erməni tarixşünaslığı hayların bu torpaqlardakı qədimliyinə dair yalan və uydurmaları tirajlamağa başlayıb və hazırda bu fəaliyyət daha geniş miqyas alıb.

Qafqaz Albaniyasının tarixi, bu torpaqların əzəli sakinləri olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəni irsi saxtalaşdırılaraq mənimsənilib, hay-ermənilərin bu ərazilərdə avtoxtonluğunu "sübut edən" saxta dəlillər uydurulub.

Kamran İmanov deyib ki, "böyük Ermənistan"ın xəyali siyasi sərhədlərini ictimai rəyə yeritməyə çalışanlardan biri - Ermənistan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru, şərqşünas-türkoloq Ruben Safrastyan bu yaxınlarda bəyanatla çıxış edərək "Türkiyə hakimiyyəti Naxçıvanın hesabına ölkələrinin ərazisini genişləndirməyə ümid edir" fikrini ortaya atıb. Bəs bu təxribat xarakterli, yalan və riyakarlıqla dolu məlumat hansı səbəbdən irəli sürülür? Məsələ ondadır ki, Naxçıvan torpaqlarına göz dikən və Naxçıvanla bağlı xəyallarla yaşayan hay-ermənilər Naxçıvanın Azərbaycandan alınmasını çox istəyirlər, özlərinin onu qoparmağa gücləri çatmadığından bunu başqalarının əlləri ilə etməyə çalışırlar. Məsələ bundadır ki, Türkiyə Naxçıvanın statusunu dəyişərsə, 1921-ci il Moskva və Qars sülh müqavilələri pozulmuş sayıla və onların ləğvi üçün hüquqi zəmin yarana bilər. Belə olduqda erməniçilik Naxçıvana qarşı öz ekspansiya iddialarına legitimlik qazandırma imkanı əldə edə bilər.

Ərazi iddiaları ilə yanaşı, ermənilər tərəfindən əqli mülkiyyətimizin oğurlanmasının "Azərbaycan mədəni ənənələrini özününküləşdirmək erməni ənənəsinə" çevrilməsi üsulları artıq çoxdan sirr deyil. Rəvayətlərimizi mənimsəmək, bayatılarımızı oğurlamaq, dastanlarımızı özününküləşdirmək üçün türk adlarının və coğrafi adların erməniləşdirilməsi, atalar sözləri və məsəllərimizin erməniləşdirilməsi üçün erməni dilinə, sonra isə digər dillərə tərcümə edilməsi, musiqimizi haylaşdırmaq üçün not şəklinə çevirib nəşr etmək, mətbəximizi, xalçalarımızı özününküləşdirmək ermənilərin gündəlik işinə çevrilib.

Hazırda milli sənət incilərimizin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs nümunələri siyahısına daxil edilməsi üçün ölkəmizdə fəal iş aparılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səyləri nəticəsində 2008-ci ildən başlayaraq bu günədək Qeyri-Maddi Mədəni İrs inciləri sırasına Azərbaycanın 11 elementi daxil edilib: musiqi alətlərimiz, xalçamız və aşıq sənətimiz, mətbəximizə aid elementlər və s. Böyük fərəh hissi ilə qeyd etmək lazımdır ki, UNESCO-nun siyahısına daxil edilən mədəni irs nümunələrimizin sayı bədnam qonşularımızın qeydə götürülən elementlərinin sayını iki dəfədən çox üstələyir.

Bununla belə, erməni tərəfi bu gün də UNESCO-nun Mədəni İrs Siyahısına daxil etmək üçün Azərbaycan xalqının maddi və qeyri-maddi irs nümunələrinə iddialar irəli sürür, əqli mülkiyyətimizə göz dikir. Belə iddiaların əsassızlığını göstərmək üçün hər birimiz səylərimizi artırmalıyıq. Bugünkü tədbirin bir məqsədi də bundan ibarətdir.

**(davamı 5-ci səhifədə)**

# Sabitlik, iqtisadi yüksəliş, sosial rifah, güclü dövlət

## *Prezident seçkilərində xalqımız bu siyasətə dəstəyini parlaq ifadə etdi*

**11 aprel 2018-ci il prezident seçkilərində böyük ruh yüksəkliyi ilə, fəal iştirak edən xalqımız daha bir çətin və həm də məsuliyyətli sınaqdan şərəflə çıxdı. Seçkilərin nəticələri milyonlarla azərbaycanlıların öz taleyinə biganə olmadıqlarını, son illərdə ölkəmizin sosial-iqtisadi inkişaf yolunun uğurlarına obyektiv qiymət verdiklərini dəyərləndirdiklərini bir daha təsdiq etmiş oldu. Beləliklə milyonlarla insan öz taleyinə əzmlə sahib çıxaraq, gələcəyini düşünərək ən layiqli namizədi - cənab İlham Əliyevi növbəti dəfə yeddi il müddətində xalqın rəhbəri, ölkənin Prezidenti görmək istəyini qətiyyətlə nümayiş etdirdi. Azərbaycan xalqı cənab Prezident İlham Əliyevə yenidən etimad göstərməklə həm bu günə kimi görülmüş işlərə, əldə olunan nəticələrə yüksək qiymət verdi, həm də respublikamızın gələcəyi, milli inkişaf istiqamətləri ilə bağlı onun genişmiqyaslı planlarına birmənalı dəstəyini nümayiş etdirdi. Buna görə də prezident seçkisi və onun məntiqi nəticəsi xalqımız və milli dövlətçiliyimiz üçün siyasi, hüquqi, ictimai əhəmiyyəti ilə yeni Azərbaycan tarixinin növbəti parlaq səhifəsinə çevrildi.**

Hələ 2003-cü ildə prezident seçkilərində cənab İlham Əliyev bəyan etmişdir ki, əgər Azərbaycan xalqı ona etimad göstərərsə o ümummilli liderimiz Heydər Əliyev siyasətini davam etdirəcək, hər bir azərbaycanlının prezidenti olacaq. Bir Prezident kimi o bu vədini qətiyyətlə yerinə yetirdi. Ötən dövr sübut etdi ki, ulu öndər tərəfindən əsası qoyulan iqtisadi islahatlar bu gün çox uğurla davam etdirilir. Son on beş ildə Heydər Əliyev siyasi kursunun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yeni, qlobal çağırışlar müstəvisində uğurla davam etdirilməsi Azərbaycanın ən yüksək zirvələri fəth etməsini şərtləndirir. Hazırda müstəqil respublikamızın adı dünyanın ən islahatçı ölkələrinin sıralarındadır. İqtisadi imkanlarını ildən-ilə genişləndirən Azərbaycanın beynəlxalq nüfuzu artır və dövlət söz sahibinə çevrilir. Bu gün ölkəmizin rəyi nəzərə alınmadan bölgədə heç bir layihə icra edilə bilməz. Azərbaycanın yerləşdiyi coğrafi məkan, təşəbbüsçüsü və iştirakçısı olduğu layihələr dövlətlər və xalqlar arasında körpü rolunu oynayır. Azərbaycan dövlətinin daxili və xarici siyasəti dünyada baş verən geosiyasi və iqtisadi proseslər və bu sahədəki beynəlxalq təcrübə nəzərə alınaraq müəyyənləşdirilir. Qloballaşma, sivilizasiyalararası dialoq, ümumbəşəri dəyərlərin tərkib hissəsi olan demokratik prinsiplər, habelə, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələn məsələlər möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasətin nəzəri və praktiki, eyni zamanda, konseptual əsaslarını təşkil edir. Bu siyasət Azərbaycanın milli maraqlarını təmin edir. Sabitlik, dinamik inkişaf, həyat səviyyəsinin ildən-ilə yaxşılaşması bir daha təsdiq edir ki, bu siyasətin alternativi yoxdur. Sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda sabitliyin mənbəyi xalqdır, onun iradəsidir, ölkə başçısının apardığı siyasətə inamıdır. Ölkəmizdə xalq-iqtidar birliyi sarsılmazdır. Bu amildən qaynaqlanan uğurlarımızın təhlili belə deməyə əsas verir ki, qarşıdakı illərdə də bizi firavan gələcək gözləyir. Bu inama əsas verən amil isə Heydər Əliyev siyasətinin davam etdirilməsi, xalqın bu siyasətə böyük dəstəyidir. Seçkilərin nəticələri bir daha göstərdi ki, bu siyasətin ölkəmizə bəxş etdiyi yüksək nailiyyətlər xalqımızda böyük razılıq hissi, gələcəyə inam və əminlik hissi yaradıb. Seçkilərdə cənab İlham Əliyevin qələbəsinə səs verən hər kəs, əslində qəlbinin səsinə qulaq asaraq keçilən möhtəşəm yolun uğurlarına qiymət verdi. Məhz bu mənada möhtərəm Prezidentin seçkilərdə parlaq qələbə qazanacağı əvvəlcədən də heç bir şübhə doğurmurdu. Çünki bizim insanlar hər zaman bayağı, reallıqdan uzaq vədlərə deyil, konkret əməli siyasətə, real işlərə qiymət verir. "Əsl siyasət konkret real iş görməkdən ibarətdir" - deyən cənab İlham Əliyev bu vədinə həmişə sadiq qalıb. Xalq və dövlət mənafeyi baxımından reallaşdırılan böyük layihələr, sosial problemlərin həllinə göstərdiyi diqqət və qayğı ilk növbədə onun "Mən hər bir azərbaycanlının prezidenti olacağam" vədinə sadiqliyini nümayiş etdirir.

Tamamilə şəffaf, ədalətli, demokratik, azad şəraitdə keçən seçkilərin nəticələri eyni zamanda onu göstərir ki, xalqımız son on beş ildə əldə olunan uğurları özünün taleyində, gündəlik yaşam tərzində, rifahında hiss edir. Artıq ölkəmizdə yüksək seçki mədəniyyəti formalaşıb. Hamımız demokratik dəyərlərə və normalara əsaslanan prezident seçkilərinin əhalinin fəallıq şəraitində keçirildiyinin şahidi olduq. Seçkilərdən sonra ölkədəki sakit ab-hava, bütün digər namizədlərin seçilən namizədi təbrik etməsi və seçkiləri müşahidə edən doqquz yüzə yaxın müşahidəçinin əksəriyyətinin səsvermənin nəticələrini yüksək qiymətləndirməsi dediklərimin əyani sübutudur. Lakin bu reallıq fonunda ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun kəskin fərqlənən qərəzli rəyi təəssüf doğurdu. Onlar hələ də məkrli niyyətlərindən əl çəkmir. İkili standartlarla ağa qara deməklə özlərinin nüfuzdan düşməsindən başqa heç nəyə nail ola bilmirlər. Bu dəfə də xalqımız, demokratik qüvvələr onlara layiqli və tutarlı cavab verməklə ədaləti qorudular. Artıq xalqımız ağı qaradan, yaxşını pisdən seçməyi, haqqa, ədalətə qiymət verməyi bacarır. Cəmiyyətdə böyük əksəriyyət dövlətin işıqlı, parlaq sabahı naminə bu seçimin zəruriliyini dərk edir. Elə seçkilərin nəticələrinin elan olunduğu andan sonra regionlarda, paytaxt Bakıda, Heydər Əliyev Mərkəzinin qarşısına toplaşan möhtəşəm izdiham, çalçağır, coşqu xalqın öz Prezidentinə olan inamını, sevgisini ifadə etdi. İnsana sonsuz qürur və rahatlıq verən bu mənzərə çətin ki, yaddaşlardan silinə. Hər bir uğuru ilə qürur duyduğumuz müstəqil Azərbaycan əldə olunan bu birliyi ilə də dünyaya səs salmağı bacarır. Dünyanın liderlərinin, dövlət və hökumət başçılarının, nüfuzlu qurumların, təşkilatların, tanınmış siyasi xadimlərin möhtərəm Prezidentimizə ünvanlanan təbriklərinin ardı-arası kəsilmir.

Son on beş ildə möhtərəm Prezidentimiz ona bəslənən ümidləri tam doğruldub, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışıb. Xalqın maraq və mənafelərinə cavab verən qətiyyətli qərarlar qəbul edib, böyük uğurlara imza ataraq özünü əsl lider kimi təsdiqləyib. Yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilib. Azərbaycan elə bir inkişaf yolu seçib ki, ölkəmizin hazırkı uğurları gələcəyə də böyük ümidlər yaradıb. İndi Azərbaycanın yaxın illərdə inkişaf etmiş ölkələrlə eyni cərgədə dayanacağına kimsə şübhə etmir. Hər il əldə olunan uğurlar respublikamızı böyük sürətlə qarşıya qoyulan bu hədəfə yaxınlaşdırılır. İndi Azərbaycan Yaxın Şərqin neft və qazla zəngin bəzi dövlətlərindən fərqli olaraq nəinki iqtisadiyyatının şaxələndirilməsinə nail olub, eyni zamanda zəngin resursların gətirdiyi uğuları davamlı çoxşaxəli iqtisadi inkişaf, sabitlik və demokratikləşmə istiqamətinə yönəldə bilib. İqtisadi tərəqqi demokratik islahatların sürətini artırır. Demokratik cəmiyyətin varlığını şərtləndirən bütün amillər ölkəmizdə bərqərar olunub. Konstitusiyada əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Çoxpartiyalı sistem yaradılıb. Bu gün ölkəmizdə qırxdan artıq siyasi partiyanın, üç minə yaxın qeyri-hökumət təşkilatının qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün təkmil qanunvericilik bazasının yaradılması da demokratik inkişafın, sabitliyin əsas göstəricilərindəndir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur-olsun, onların hamısı bir məqsədə — Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir. Ölkədə seçkilərin demokratik, azad, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi üçün təkmil seçki sistemi formalaşdırılıb. Seçki Məcəlləsi qəbul olunub. Daim təkmilləşən, bütün yenilikləri özündə əks etdirən bu sənəd ölkədə prezident, Parlament və bələdiyyə seçkilərinin, ümumxalq səsverməsinin beynəlxalq standartlara uyğun keçirilməsini şərtləndirir. Bütün bunlar ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Müstəqil Azərbaycan dünyanın ən nüfuzlu tribunalarından həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırır. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması dövlətimizin demokratik prinsiplərə sadiqliyinin bariz nümunəsidir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz.

Azərbaycanda sabitliyin, iqtisadi inkişafın davamlılığı yeni hədəflərə yol açmaqla yanaşı, yeni-yeni tərəfdaşlar qazanmasına da stimul verir. "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyində "Cənub Qaz Dəhlizi"nin təməlinin qoyulması, "Yeni əsrin müqaviləsi"nin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Böyük İpək Yolunun bərpası çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə yönələn addımların əsas tərkib hissələridir. Təbii ki, bu uğurları şərtləndirən amillər sırasında iqtisadi və siyasi islahatların paralel şəkildə aparılması hər zaman xüsusi qeyd edilir. Ölkəmizin demokratiya təcrübəsi digər dövlətlərə nümunə göstərilir. Bu gün Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün əsas məkan seçilməsində də demokratik inkişaf əhəmiyyətli rol oynayır. Ölkəmizdə olan qonaqlar bizdə olan inkişafdan heyrətlərini gizlədə bilmirlər, dövlətimizin həyata keçirdiyi siyasətə xalqın dəstəyini böyük məmnunluqla vurğulayırlar. Azərbaycan çoxmillətli dövlətdir və bu xalqların hamısı bir ideya ətrafında birliyini həmişə ifadə edir. Ölkəmizdə yaranan demokratik şəraiti yüksək qiymətləndirən xarici qonaqlar etiraf edirlər ki, dünyada çox az dövlət tapılar ki, ölkəmizdə yaranan tolerantlıq, dini dözümlülüyün təmin olunması üçün buradakı qədər səylər göstərilsin. Azərbaycan milli-mənəvi dəyərlərin dünya mədəniyyətinin inciləri ilə vəhdət halında qorunub saxlanılması, təbliğinə, Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin güclənməsinə ən böyük töhfə verən ölkədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm başqa xalqın nümayəndəsinə və başqa dinə hörmətdir. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Bu mənada multikulturalizm bizim həyat tərzimizdir. 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilmişdi. Dövlətimizin başçısı bildirir: "Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkədaxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların tətbiqi işində nümunəvi ölkə kimi tanınır".

Dövlət başçımızın böyük qətiyyətlə bəyan etdiyi "Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək" mövqeyi Azərbaycanın diplomatik mübarizədə qazandığı uğurlarla yanaşı, iqtisadi imkanlarımızın genişlənməsi fonunda ordumuzun qüdrətinin və gücünün artmasına əsaslanır. Azərbaycan Prezidenti qeyd edib ki, ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, bizim böyük qələbəmizdir. Azərbaycan ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbələr salınıb. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü göstərir, Azərbaycan xalqının yenilməz ruhunu göstərir. Bu onu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq. Və olacağıq. Cənab İlham Əliyev vurğulayıb ki, erməni vandalları, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə qarşı da soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağıdılmış məscidləri qəlbimizdə ucaltmışıq. Vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini torpaqlar işğaldan azad olunandan sonra biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlar ibadət edə bilərlər. Bu bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq, torpaqlarımızı azad edəcəyik. Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilib. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını sevindirir, onu qürurlandırır.

Sadalanan uğurlarımız bu gerçəkliyi bir daha təsdiqləyir ki, möhkəm təməl üzərində qurulan Azərbaycan iqtisadiyyatı inkişaf yolunda inamla irəliləyir. Azərbaycan malik olduğu təbii resurslara görə daim dünyanın diqqət mərkəzində olub. Amma bu diqqət və maraq müxtəlif dövrlərdə müxtəlif şəkildə büruzə verilib. Müstəqilliyimizin ilk illərində Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər ölkədə ictimai-siyasi durumun gərginliyindən qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Dahi şəxsiyyət Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, ölkədə daxili sabitliyin yaradılması bu tərəddüdləri aradan qaldırdı. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 231 milyarda çatması ölkəmizin bu gününə və gələcəyinə, ən əsası həyata keçirilən siyasətə inam nümayiş etdirir. Bununla yanaşı, Azərbaycanda müasir iqtisadi və sosial infrastruktur yaradılmış, ölkənin enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin olunmuşdur. Əməkhaqları, pensiyalar, təqaüdlər ardıcıl şəkildə artırılmışdır. Minlərlə istehsal obyekti, nəhəng zavod və fabriklər, texnoparklar tikilmiş, bir milyonyarım yeni iş yerləri yaradılmışdır. Nəhəng infrastruktur layihələrinin reallaşdırılması nəticəsində Azərbaycan regionun həm də nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Həyata keçirilmiş regional inkişaf Dövlət proqramları paytaxtla bölgələr arasında kəskin fərqin aradan qaldırılmasına ciddi təsir göstərmişdir. Regionlar da paytaxt kimi dinamik inkişaf edib, müasirləşib. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycan dünyanın aparıcı maliyyə və iqtisadi institutlarında öncül sırada yer almağa başlamışdır. Hər il iyirmi mindən çox məcburi köçkün yeni müasir mənzillərlə təmin olunur. Dövlət heç bir yerdən yardım almadan, öz hesabına təbii fəlakətlərin ağır nəticələrini aradan qaldırır, ziyan çəkmiş ailələrə yardım edir, dağılmış infrastrukturu bərpa edir.

Bir sözlə, ölkə iqtisadiyyatına yatırılan investisiyalar, yaradılan yeni iş yerləri, sənaye istehsalının artımı, iqtisadiyyatın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və işlənməsi, xüsusilə innovasiyaların tətbiqi qarşıdakı dövrdə istər qeyri-neft sektorunun, istərsə də neft sənayesinin sürətli inkişafını təmin edəcək. Bunlar isə xalqın rifahının yüksəlişi deməkdir.

Möhtərəm Prezidentimizin qətiyyətli fikirlərini yada salıram: "Bir daha demək istəyirəm ki, mənim dünyagörüşüm belədir, mənim fəlsəfəm belədir. Mən Azərbaycanı müasir dövlət kimi görmək istəyirəm. Zəngin, iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən azad, müasir, dünyaya açıq, əməkdaşlığa hazır, öz mövqeyini müdafiə edən, qüdrətli ordu potensialına malik olan, öz ərazi bütövlüyünü bərpa edən ölkə kimi görmək istəyirəm və bu yolda əlimdən gələni edəcəyəm. Məni bu yoldan heç kim və heç nə döndərə bilməz". Ona bu hədəfin reallaşmasında həmişə arxalandığı xalqımız dəstək olmuş və olacaqdır.

**Aydın QASIMOV,**
**Milli Aviasiya Akademiyasının "İqtisadiyyat və hüquq" fakültəsinin dekanı,**
**hüquq elmləri doktoru, professor.**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaqlarla görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Nərimanov rayonunda sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 saylı respublika xüsusi internat məktəbində olub.**



AZƏRTAC xəbər verir ki, sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 saylı respublika xüsusi internat məktəbi 1936-cı ildən fəaliyyət göstərir. Məktəbin hazırkı binası 1961-ci ildə inşa olunub. Bina 2006-cı ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yenidənqurma və bərpa işlərindən sonra istifadəyə verilib.

Hazırda məktəbdə 306 şagird təhsil alır. Onlardan 135-i məktəbdə daimi olaraq qalır.





Leyla Əliyeva internat məktəbindəki şəraitlə tanış oldu, eyni zamanda, Fond tərəfindən yaradılan sinifdə uşaqlarla görüşərək, onların təhsili, asudə vaxtlarının təşkili ilə maraqlandı.

Xatırladaq ki, Heydər Əliyev Fondunun BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən "Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi çərçivəsində məktəbdə uşaqlar üçün xüsusi sinif yaradılıb. 2007-ci ildə açılışı olan sinfə Fond tərəfindən müvafiq tədris vəsaitləri, kor və görmə qabiliyyəti zəif uşaqlar üçün hazırlanmış kompüterlər hədiyyə edilib. Burada, həmçinin audio studiya və kitabxana var.

Bildirilib ki, Brayl əlifbası ilə Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabı burada kompüterin yaddaşına köçürüb oxumaq, səsləndirib dinləmək, musiqiyə qulaq asmaq, internetə bağlanmaq, məktublaşmaq mümkündür.

Daha sonra internat məktəbinin şagirdləri, o cümlədən Rusiyada müxtəlif veriliş və festivallarda iştirak edən istedadları öz ifalarını təqdim ediblər.

**AZƏRTAC**

*Kamran İmanov:*

# Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını ifşa edir

**(əvvəli 4-cü səhifədə)**

Kamran İmanov diqqətə çatdırıb ki, konfransda qədim mətnlərə, klassik mənbələrə və tanınmış dünya alimlərinin fikirlərinə əsaslanan təqdimatlarda "Armeniya" termininin toponimik, etnonimik və linqvistik mənşəyi haqqında məlumat veriləcək, onun mənimsənilməsi və XX əsrdən başlayaraq "Hayastan" sözünün sinonimi kimi işlənməsi, "Şərqi Armeniya" və "Qərbi Armeniya" adlandırılan torpaqların hay-ermənilərə aid olmaması, hay-erməni əlifbasının Aran mənşəyi, hayların etnik xüsusiyyətləri, turanlı sülalələrin erməni sülalələri kimi qələmə verilməsi, Azərbaycana aid kitabələrin erməni mətnləri kimi oxunması cəhdləri, ermənilərin Urartu və Armina dövlətlərinin tarix və mədəniyyətinə iddiaları və s. məsələlər geniş işıqlandırılacaq, bu mövzulara dair hay-erməni mifologiyasının qonşu xalqların ərazilərini qəsb etməyə və onların mədəni irsinin mənimsənilməsinə yönəldildiyi barədə danışılacaq və ermənilərin bu iddiaları tarixi faktlar və mənbələr əsasında ifşa ediləcək, Azərbaycan həqiqətləri bir daha göstəriləcək.

MHA İdarə Heyətinin sədri konfransın işinə uğurlar arzulayıb, bu mövzuda tədbirlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov Azərbaycanın yenidən növbəti tarixi günlərini yaşadığını, ölkəmizdə prezident seçkilərinin uğurla başa çatdığını söyləyib. O bildirib ki, müasir müstəqil Azərbaycanın banisi və qurucusu ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev ümumxalq səsverməsi ilə növbəti dəfə dövlət başçısı seçilib. Bu, Azərbaycan dövlətinin, müstəqilliyimizin, xalqımızın qələbəsidir.

Fəttah Heydərov işğal olunmuş torpaqlarımızda mədəni irsimizin məhv edilməsindən, onların ermənilər tərəfindən özününküləşdirilməsindən danışıb, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Müəllif Hüquqları Agentliyinin fəaliyyətini yüksək dəyərləndirib. Bildirilib ki, tarix boyu əbədi və əzəli torpaqlarımızda məskunlaşan ermənilər heç vaxt bədnam niyyətlərindən əl çəkməyib, bu gün də öz çirkin siyasətlərini davam etdirirlər. Milli Məclisin deputatı ermənilərin iç üzlərinin açılmasında, onların bəd əməllərinin ifşa olunmasında və əqli mülkiyyətimizin qorunmasında dövlətimiz və Müəllif Hüquqları Agentliyi tərəfindən görülən işləri yüksək dəyərləndirib, konfransın mövzusunun xalqımız və dövlətimiz üçün hər zaman, xüsusilə müasir dövrdə aktual olduğunu söyləyib.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova Müəllif Hüquqları Agentliyinin mütəmadi olaraq Azərbaycanın tarixi, mədəniyyəti, xalqımızın malik olduğu dəyərlərlə bağlı mühüm işlər gördüyünü söyləyib. Bildirilib ki, erməni saxtakarlıqlarının açılmasında, onların yalan, əsassız olduğunun tarixi faktlarla beynəlxalq aləmə, ictimaiyyətə çatdırılmasında agentlik tərəfindən mühüm addımlar atılır, müxtəlif kitablar nəşr olunur, beynəlxalq konfranslar təşkil edilir.

Rektor diqqətə çatdırıb ki, mənfur qonşularımız tərəfindən hər zaman mədəniyyət abidələrimiz, memarlıq nümunələrimiz, milli mənəvi dəyərlərimiz saxtalaşdırılır, özününküləşdirilir və ya onlara yalandan müxtəlif əlavələr edilməklə etnik mənşəyi dəyişdirilir, mənimsənilir. Bədnam qonşularımız tərəfindən işğal olunmuş ərazilərimizdə memarlıq abidələrimiz dağıdılıb, məhv edilib və onların əksəriyyəti yer üzündən silinib. Agentlik tərəfindən erməni yalanlarının ifşa olunmasında mühüm işlərin görüldüyünü bildirən G.Məmmədova bu istiqamətdə müxtəlif sahələrdən alimlərin, tədqiqatçıların birgə fəaliyyət göstərmələrinin vacibliyini vurğulayıb.

Milli Məclisin deputatı Elmira Axundova konfransın çox vacib, aktual mövzuya həsr olunduğunu söyləyib, erməni yalanlarının ifşa olunmasında, onların iç üzlərinin açılmasında böyük rol oynayan kitabların nəşr edildiyini, dəyərli tədqiqat işlərinin aparıldığını bildirib. Qeyd edilib ki, akademik Ramiz Mehdiyevin bütün kitablarında bu mövzudan ətraflı bəhs edən fəsil və bölmələr xüsusi yer tutur. Erməni tarixçilərinin hər zaman tarixi saxtalaşdırıb süni tarix yaratdıqlarını bildirən Elmira Axundova mənfur qonşularımıza qarşı müxtəlif ölkələrdən olan alimlərlə birgə mübarizə aparılmasının vacibliyini vurğulayıb, bu istiqamətdə sosial şəbəkələrdə bir sıra işlərin görülməsinin əhəmiyyətini qeyd edib. O, konfransın bu sahədə görülən işlərə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Konfransda MHA-nın eksperti Elşad Əlili "Armeniya" coğrafi adının etimologiyası haqqında", Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri, filologiya elmləri doktoru İlhami Cəfərsoy "Erməni əlifbasının Aran mənşəyi", Bakı Dövlət Universitetinin (BDU) tarix fakültəsinin arxeologiya və etnoqrafiya kafedrasının dosenti Kərəm Məmmədov "Hayların etnik xüsusiyyətləri", BDU-nun dosenti Atamoğlan Məmmədli "Azərbaycana aid kitabların erməni mətnləri kimi oxunması cəhdləri", AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Allahverdi Əlimirzəyev "Ermənilərin Urartu və Armina dövlətlərinin mirasına iddiaları", professor Əjdər Tağıoğlu "Özlərini hay adlandıran və bizim "erməni dediyimiz" millətin etnoeponimi, etnotarixi və etnoyazısı olubmu?", filologiya elmləri doktoru İslam Sadıq "Erməni təbliğatı və Azərbaycan həqiqətləri" mövzularında məruzələrlə çıxış ediblər.

Məruzələrdə erməni tarixçilərinin uydurmaları elmi faktlarla ifşa olunub, mövzular ətrafında geniş müzakirələr aparılıb.

**AZƏRTAC**

# Yasamal rayonu: İnkişaf tempi davam edir




**Bu gün Bakının Yasamal rayonunda müsbət irəliləyişlər müşahidə olunur, sosial-iqtisadi vəzifələrin həyata keçirilməsinə maksimum səy göstərilir, quruculuq və abadlıq işləri vüsət alır. Bu günlərdə rayonda cari ilin birinci rübünün yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.**

Tədbirdə **Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizovun** məruzəsi dinlənildi. O vurğuladı ki, 2018-ci ilin birinci rübündə respublikamızın inkişaf tempinə uyğun olaraq Yasamal rayonunun iqtisadi göstəricilərində artım qeydə alınmış, uğurlu nəticələrə nail olunmuşdur.

2018-ci ilin birinci rübündə respublikamızın ümumi inkişaf tempinə uyğun olaraq Yasamal rayonununda iqtisadi göstəricilərində artım qeydə alınmış, rayon sakinlərinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən effektiv tədbirlər rayonun demək olar ki, bütün sosial, ictimai-siyasi proseslərinə öz müsbət təsirini göstərmişdir.

Birinci rübdə Yasamal rayon Məşğulluq Mərkəzinə 1500 nəfər müraciət etmişdir. Onların 1339 nəfəri işaxtaran vətəndaş kimi qeydiyyata alınmış, onlardan 816 nəfər Ərazi Məşğulluq Proqramına əsasən daimi işlə təmin edilmişdir. Üç ay ərzində 23 nəfər vətəndaşa işsizlikdən sığorta ödənişi təyin edilmiş, onlardan 12 nəfərə orta aylıq əməkhaqqı əsasında, 11 nəfərə isə minimum məbləğdə ödəniş olunmuşdur. 560 nəfər işaxtaran vətəndaş rayon Mənzil Kommunal Təsərrüfat Birliyində işlə təmin olunmuş, 136 nəfər rayon ərazisində binaların təmir-tikinti işləri ilə məşğul olan "İnşaat Servis" Məhdud Məsuliyyətli Cəmiyyətdə işə cəlb olunmuşlar.

Mənzil-Kommunal Təsərrüfat Birliyi tərəfindən 8 yaşayış binasında dam örtüyü təmir edilmiş, 10 yaşayış binasının istilik xətləri dəyişdirilmiş, məişət tullantılarının Balaxanı Poliqonuna daşınaraq rayon ərazisində sanitar, gigiyena-epidemioloji normaların tələblərinə riayət olunması təmin edilmişdir.

Bakı şəhərində aparılan abadlıq-quruculuq işləri və yol-nəqliyyat infrastruktur təminatının yaxşılaşdırılması tədbirləri çərçivəsində Yasamal rayonu ərazisində geniş abadlıq və yenidənqurma işlərinin həyata keçirilməsinə başlanmışdır.

Yasamal Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Bakı şəhərində hazırda ən aktual məsələlərdən biri olan körpələr evi-uşaq bağçalarındakı sıxlığın aradan qaldırılması istiqamətində işlərə başlanılmışdır. Artıq 160 yerlik 11 nömrəli körpələr evi-uşaq bağçasının sökülərək 200 yerlik yeni, daha müasir, azyaşlıların hərtərəfli inkişafına və komfort şəraitdə saxlanmalarına imkan verən məktəbəqədər müəssisənin inşası məsələsi öz müsbət həllini tapmışdır və artıq bu istiqamətdə işlərə başlanılmışdır.

Yasamal Rayon Enerji Satışı və İstismarı İdarəsi tərəfindən cari ilin 3 ayı ərzində rayonun Süleyman Dadaşov, Əsəd Əhmədov, Şərifzadə, Xiyabani, Ələsgər Ələkbərov, Dilarə Əliyeva, Təbriz Xəlilbəyli və İslam Səfərli küçələrində, İnşaatçılar prospektində hava xətləri kabel xətti ilə əvəz olunmuş, 1 ədəd yeni transformator quraşdırılmışdır. 85143 abonentin 99.9% sayğaclaşmış, ödəniş 101% təşkil etmişdir.

Cari ilin 3 ayı ərzində rayon Sukanal İdarəsi tərəfindən də müəyyən işlər görülmüş, rayon ərazisində müxtəlif diametri yeni su xətləri çəkilmiş və dəyişdirilmişdir. Ümumilikdə 88847 abonent su ilə təmin olunmuş, onlardan fasiləsiz su ilə təmin olunanların sayı daha da artaraq 80 faizə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 2018-ci il martın 15-dən 18-dək "Ölkəmizi tanıyaq" devizi ilə yeniyetmələrin respublikamızın müxtəlif rayonları ilə tanışlığı üçün növbəti maarifləndirici tur-aksiyası təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən fevral ayından başlayaraq rayonun səhiyyə müəssisələri tərəfindən əhalinin icbari tibbi müayinəsi tədbirlərinə başlanılmışdır, müəyyən olunmuş müddət ərzində icbari tibbi müayinə tədbirləri rayonun səhiyyə müəssisələri tərəfindən yüksək keyfiyyətlə həyata keçirilməkdədir.

2018-ci ilin birinci rübündə Rayon İcra Hakimiyyəti başçısınn aparatına vətəndaşlardan 844, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 53 daha çox müraciət daxil olmuşdur.

Qeyd etmək lazımdır ki, aprelin 11-də Yasamal rayonunda Prezident seçkiləri seçicilərin fəallığı ilə başa çatmışdır.

Yığıncaqda rayon su kanal idarəsinin rəisi İlqar Abdullayev, rayon Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Abas Quliyev, "Elit City" MMC-nin sədri Rəfail Mirzəyev, YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov və 15 saylı Yasamal 1-ci seçki dairəsinin sədri Cumar İsayev çıxış etdilər.

Rayon İcra Hakimiyətinin başçısı Əziz Əzizov tədbiri yekunlaşdıraraq əminliklə bildirdi ki, rayonda inkişaf tempi uğurla davam etdiriləcək, xüsusilə abadlıq və quruculuq işləri maksimum səviyyəyə qaldırılacaqdır.

**Qədir ASLAN,**
**"Respublika".**

# Biləsuvar: sosial-iqtisadi göstəricilər uğurdan xəbər verir




**Biləsuvar rayon Heydər Əliyev Mərkəzində 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi.**

Hesabat iclasında rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri, məktəb direktorları, ağsaqqallar, gənclər və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdi.

Yığıncaqda **RİH-in başçısı Mahir Quliyev** ilk öncə 11 aprel 2018-ci il tarixdə ölkəmizdə keçirilən Azərbaycan Respublikası Prezidentinin seçkilərində böyük üstünlüklə qələbə qazanaraq növbəti 7 ildə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevi bütün biləsuvarlılar adından təbrik edərək, cənab Prezidentə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycanımızın daha da güclənməsi və inkişafı uğrunda apardığı yorulmaz fəaliyyətində yeni-yeni nailiyyətlər arzuladı.

Sonra rayonda 2018-ci ilin birinci rübündə bütün sahələr üzrə aparılan işlər və həyata keçirilən tədbirlərin uğurla davam etdirildiyini diqqətə çatdıran rayon rəhbəri bildirdi ki, bu dövrdə rayonumuzda ümumi məhsul buraxılışının həcmi 48.1 milyon manat olmuşdur.

Ölkə rəhbərinin tapşırıq və tövsiyələrinə uyğun rayonumuzda səmərəsiz qalan Dövlət Fonduna aid 17 min hektardan artıq qış otlaq sahəsinin təyinatı dəyişdirilərək ərazidə 3 Aqropark yaradılmışdır. "Yaşıl ada" Aqroparkında ötən dövr ərzində bir sıra işlər görülərək 6 km uzunluğunda çınqıl örtüklü yol çəkilmiş və 5 ədəd kənd təsərrüfatı texnikası alınmışdır. Hazırda 6,5 km beton kanalın çəkilişi işləri aparılır. Bu il aqroparkda min hektar ərazinin suvarılmasında müasir suvarma sistemi olan pivotların quraşdırılması nəzərdə tutulmuşdur.

İcra başçısı hesabatda pambıqçılığın inkişafı ilə yanaşı, kənd təsərrüfatının digər sahələrinin də diqqət mərkəzində olduğunu bildirərək bu dövrdə 14144 hektar sahədə buğda, 12063.9 hektar sahədə isə arpa olmaqla ümumilikdə 26177.9 hektar payızlıq dənli bitkilər əkildiyini diqqətə çatdırmışdır. Bundan əlavə, bu il yazlıq əkinlər üzrə 190.5 hektar paxlalı bitkilər, 3.1 hektar qarğıdalı, 380 hektar yonca, 130 hektar günəbaxan, 173 hektar kartof, 566 hektar tərəvəz, 607 hektar şəkər çuğundurun əkilməsi qeyd olunmuşdur.

2018-ci ilin I rübündə heyvandarlığın inkişafı sahəsində də irəliləyişlər əldə olunmuşdur. Belə ki, iribuynuzlu mal-qaranın baş sayı 40.8 min başa, xırdabuynuzlu mal-qaranın baş sayı 140 min başa çatdırılmışdır. 2018-ci ilin I rübündə ət istehsalı 1761 ton, süd istehsalı 6716 ton olmuşdur.

"Biləsuvar şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi çərçivəsində hazırda son tamamlama işləri aparılır. Bəydili və Xırmandalı kəndlərinə içməli su xətti çəkilərək, Bəydili kəndində 25 ədəd, Xırmandalı kəndində 52 ədəd bulaq tikilib istifadəyə verilmişdir.

Kanalizasiya çəkilişi zamanı yararsız vəziyyətə salınmış 7 küçədə ümumilikdə 4,5 km uzunluğunda asfalt-beton örtük tikilmiş, Səməd Vurğun və Şəhriyar küçələrində 830 kv.metr sahədə asfalt-beton örtüyün təmiri işləri aparılmışdır. Hazırda küçələrin asfaltlaşdırılması və təmiri işləri davam etdirilir.

Rayon rəhbəri bildirdi ki, 2018-ci ildə rayonumuzda ictimai-siyasi sabitliyin təmin olunmasına, təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafına, dövlət-din münasibətlərinin qorunub saxlanılmasına, gənclərlə işinin yaxşılaşdırılmasına diqqət artırılmış və bu sahələrdə maddi-texniki bazanın möhkəmləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Hər il olduğu kimi, bu il də ölkə Prezidentinin müvafiq sərəncamına əsasən əhalinin tibbi müayinəsinə başlanılmışdır. İlin birinci üç ayı ərzində rayonun 44497 nəfər əhalisi tibbi müayinədən keçmişdir. Onlardan 3526 nəfəri ambulator, 123 nəfəri stasionar müalicəyə cəlb edilmiş, 37 nəfərə isə müalicəsinin davam etdirilməsindən ötrü göndərişlər verilmişdir.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxışının sonunda bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasdakı proqram xarakterli çıxışı qarşımıza çox böyük məsuliyyət qoyur. Rayonumuzda da abadlıq, quruculuq işlərinin davam etdirilməsi, sosial infrastrukturun yenilənməsi, kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişaf etdirilməsi, Aqroparkların salınması, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin yaradılması əsas məsələlərimiz olacaqdır.

Ölkə başçısının proqram xarakterli çıxışını rəhbər tutaraq 2018-ci ildə və sonrakı illərdə də rayonumuzun sosial-iqtisadi inkişafını təmin edən tədbirlərin həyata keçirilməsini təmin edəcəyik.

Hesabat iclasında Biləsuvar Rayon Su-Kanal İdarəsinin rəisi Sərxoş Səidov, rayon elektrik enerjisi təchizatı və Satışı İdarəsinin baş mühəndisi İmran Kəlbiyev çıxış edərək fəaliyyət göstərdikləri sahələr üzrə görülmüş işlər barədə ətraflı məlumat verdilər və qarşıda duran vəzifələr müzakirə olundu.

**Ərastun ABDULOV,**
**"Respublika".**

# Qubadlı rayonu üzrə birinci rübdə görülən işlər müzakirə olunub




**Əhalisinin sayı 37 min 700 nəfər olan Qubadlı rayonunun məcburi köçkünləri respublikanın 41 müxtəlif şəhər və rayonunda məskunlaşıb. Rayon üzrə cari ilin birinci rübündə 49 yeni iş yeri açılıb. Ümumiyyətlə son 14 ildə yeni yaradılan iş yerlərinin sayı 3 min 754-ə çatıb. Cari ilin ilk rübündə rayon sakinlərinin məskunlaşma yerlərində yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilib. Müxtəlif yerlərdə keçirilən səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli istiqamətində müəyyən işlər görülüb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər Qubadlı Rayon İcra Hakimiyyətinin 2018-ci ilin birinci rübündə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan hesabat iclasında səsləndirilib.

Hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Xoşqədəm Əliyeva bildirib ki, birinci rübdə yerli gəlirlərin proqnoz məbləği 412 min 603 manat, yerli xərclərin icrası isə 407 min 523 manata qarşı 342 min 669 manat və yaxud 84,1 faiz icra olunub. Vergilər şöbəsində 1793 vergi ödəyicisi qeydiyyata alınıb. Vergilər şöbəsi hesabat dövründə 501 min 500 manat plana qarşı 680 min 600 manat vəsait toplayıb. Bu da planın 135,7 faizi, yəni 179 min 100 manat çox vəsaitin daxil olması deməkdir.

Cari ilin birinci rübünün yekunlarının təhlili göstərir ki, rayonda 7808 pensiyaçı qeydiyyatdadır. Onların 2447 nəfəri yaşa görə, 3958-i əlilliyə görə, 332 nəfəri ailə başçısını itirməyə görə, 1071 nəfəri isə sosial pensiya alanlardır. Hesabat dövründə əvvəlki vaxtlarda olduğu kimi pensiyaların, maaşların və digər müavinətlərin ödənilməsi problemsiz həyata keçirilib.

Məruzədə ilin üç ayında kənd təsərrüfatı sahəsində də müəyyən işlərin görüldüyü bildirilib. Qeyd olunub ki, rayon icra hakimiyyətinin köməyi ilə baramaçılığı inkişaf etdirmək üçün Füzuli və Sabirabad rayonları ərazisində əkilmiş Çindən gətirilmiş və yerli sortlardan olan tut tinglərinə yaz aylarında qulluq edilməsi məqsədilə bütün tədbirlər görülür. Rayonda xüsusi ilə son illər arıçılığın inkişafındakı nailiyyətlər, arı ailələrinin sayının 5 min 200-ə yaxınlaşması onu deməyə əsas verir ki, bu sahə üzrə potensial var və ondan istifadə etmək lazımdır.

Hesabat iclasında təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və digər sahələrdə görülən işlər də ətraflı müzakirə olunub.

İclasa yekun vuran Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov qarşıda duran vəzifələrdən danışaraq, vəzifəli şəxsləri insanlara qarşı daha diqqətli, xoş əməllər üçün təşəbbüskar və fəal olmağa səsləyib, bəzi məsələlərin həlli ilə bağlı tapşırıqlarını verib.

Sonda müzakirə olunan məsələ ilə bağlı qərar qəbul edilib.

**AZƏRTAC**

# ÇXR-dən 7 MİN QUTU İPƏKQURDU TOXUMLARI (QRENA) GƏTİRİLİB

Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər çərçivəsində kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi prioritet vəzifələrdən biri kimi müəyyən edilib.



Azərbaycanda ipəkçiliyin inkişaf etdirilməsi üçün böyük potensialın mövcud olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı tapşırıqlarına uyğun respublikada ipəkçiliyin müasir infrastrukturunun yaradılması, baramaçılığın yem bazasının formalaşdırılması, barama toxumçuluğunun təşkili istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Ölkə Prezidentinin tapşırıqlarına uyğun Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 2017-ci ildə ölkədə 245 ton yaş barama məhsulu istehsal edilib.

Azərbaycan Respublikası Prezidentinin "İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 16 noyabr tarixli 2442 nömrəli Sərəncamına uyğun olaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2016-cı ildə tender müqaviləsi əsasında Çin Xalq Respublikasından 1,5 milyon ədəd, 2017-ci il 29 noyabr tarixində isə 1 milyon ədəd tut tingləri tədarük edilmiş, bölgü əsasında əvəzi ödənilmədən 37 baramaçılıq rayonlarına paylanılmış və bu rayonların ərazilərində yeni intensiv tipli tut (çəkil) bağlarının salınması təmin edilib.

Həyata keçirilmiş tədbirlərin davamı olaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tender müqaviləsi əsasında Çin Xalq Respublikasından 13 min (on üç min) qutu yüksək keyfiyyətli hibridipəkqurdu sənaye toxumları (qrena) alınaraq aran, dağlıq və dağətəyi rayonlar nəzərə alınaraq 2 mərhələdə respublikamıza gətirilməsi nəzərdə tutulub. Aprel ayının 17-də ilkin mərhələdə 7 min (yeddi min) qutu yüksək keyfiyyətli hibridipəkqurdu sənaye toxumları (qrena) alınaraq respublikaya gətirilib və inkubasiya qoyulması üçün Qax Damazlıq İpəkçilik Stansiyasına yola salınıb. Qax Damazlıq İpəkçilik Stansiyasında inkubasiyaya qoyulmuş barama toxumlarından əldə olunacaq ipək qurdlarının bölgü əsasında respublikanın 40 rayonunun kümçülərinə əvəzi ödənilmədən paylanılması nəzərdə tutulub. Aprel ayının 24-də isə ikinci mərhələdə daha 6 min (altı min) qutu hibridipəkqurdu sənaye toxumları (qrena) gətirilərək kümçülərə paylanılacaqdır.

**Nəriman CAVADOV,**
**"Respublika".**




# Hərbi xidmətə yolasalınma mərasimi bayram təntənələrini xatırladırdı




Hər dəfə qədim Şirvan torpağında—Şamaxıda gənclərin həqiqi hərbi xidmətə yolasalınma mərasimi əsl ümumrayon bayramına çevrilir. Bunun dəfələrlə şahidi olmuşuq. Bu günlərdə də təşkil olunmuş vətənə xidmət kimi müqəddəs bir məslək uğrunda toplaşan yüzlərlə rayon sakini əvvəlcə xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin əzəmətli abidəsini ziyarət etmiş, hörmət və ehtiramlarını bildirmişlər. Sonra torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda etmiş müqəddəs şəhidlərimizin məzarları önünə tər çiçəklər qoyulmuş, ruhlarına dualar oxunmuş, xatirələri anılmışdır. Şəhərin mərkəzi parkında gənclərin yolasalma mərasiminə toplaşanları salamlayan **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı rayon şöbəsinin rəisi, polkovnik leytenant Nasir Qurbanov** bu tədbirin əlamətdar bir dövrə təsadüf etdiyini qeyd edərək vurğuladı ki, ölkəmizin həyatında ən mühüm siyasi hadisənin — Prezident seçkilərində xalqımızın alternativsiz lideri, Ali Baş Komandanımız cənab İlham Əliyevin yenidən seçkilərdə parlaq qələbə qazanmasının şahidi olduq. Xalqımızın, ölkəmizin inkişafına göstərdiyi cahanşümul xidmətlər, müstəqil, demokratik dövlətimizin dünya birliyində mövqeyinin möhkəmlənməsi yolunda cənab Prezidentimizin səyləri Azərbaycanımızı daha böyük qələbələrə, nurlu sabaha qovuşduracaqdır.

Bugünkü tədbirimizin hər bir iştirakçısı məhz bu bayram əhvali-ruhiyyəsi içərisindədir desəm, yəqin ki, səhv etmərəm.

Xidmətin rəisi daha sonra vurğuladı ki, hər bir yolasalma mərasimində Şamaxı Rayon İcra Hakimiyyəti rəhbərliyinin göstərdiyi qayğı və diqqət, rayonun idarə, müəssisə və təşkilat, hüquq-mühafizə orqanları rəhbərlərinin iştirak etməsi gənclərimizin vətənə xidmət andına bir daha sadiqlik göstərmələrinə stimul verir.

Sonra yolasalma mərasimində iştirak edən **Şamaxı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qasım Qasımova** söz verildi.

Qasım Qasımov mərasim iştirakçılarını salamlayaraq yaz çağırışının olduqca əlamətdar bir dövrə təsadüf etdiyini vurğuladı, bütün şamaxılılar adından ölkə başçısı cənab İlham Əliyevi bir daha parlaq qələbə münasibətilə təbrik etdi.

Ordu quruculuğunun həmişə dövlətin apardığı siyasətin prioritet istiqamətlərində başlıca rol oynadığını vurğulayan natiq dedi:

—Cənab Prezidentimizin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı ordu quruculuğu ilə bağlı görülən işlərdən söhbət açarkən demişdir: **"...Ordu quruculuğu bu gün də bizim üçün prioritet məsələdir, sabah da prioritet məsələ olacaq. Biz son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir. Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar və reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika alacağıq ki, daim hərbi üstünlük təmin edilsin, necə ki, bu gün təmin edilir".**

Daha sonra rayon icra hakimiyyəti başçısının birinci müavini Qasım Qasımov həqiqi hərbi xidmətə yola düşən gənclərə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayevin adından xoş arzularını bildirdi.

Sonra övladını əsgəri xidmətə yola salan **Xalid Zərbəliyev** söz aldı. O qeyd etdi ki, bu gün mənim həyatımda ən unudulmaz hadisə baş verir. İllərdən bəri gözlədiyim gün gəlib yetişdi. Övladımı həqiqi hərbi xidmətə yola salmaqdan, Vətənimizi qoruyan minlərlə oğullardan biri kimi görməkdən böyük xoşbəxtlik ola bilməz. Hər bir valideynə belə qürurverici anlar yaşamağı arzulayıram.

"Oğlum Hüseynov Hafisi yola salmaq üçün gələn bütün qohumlarıma, mərasimi təşkil edənlərə hədsiz minnətdaram". Bu sözləri isə valideyn Xalis Hüseynov dedi. O daha sonra bildirdi ki, bu gün hər bir Azərbaycan vətəndaşı kimi, mənim də bir arzum var—torpaqlarımız tezliklə yağı düşməndən azad olunsun. Şəhidlərimizin qanı yerdə qalmasın, köçkün və qaçqın düşmüş soydaşlarımız öz dədə-baba yurdlarına qayıtsınlar. Mən buna öz varlığım kimi inanıram. Azərbaycanın sükanı etibarlı əldədir. Xalqımızın sabahı bu günündən də gözəl olacaqdır. —Əziz balalar, yolunuz açıq olsun, sağ-salamat görüşmək ümidi ilə sizlərə yaxşı yol!

Tədbirin sonunda həqiqi hərbi xidmətə yola düşənlər marş sədaları altında müqəddəs bayrağımızı öpərək, onlar üçün ayrılmış avtobuslara minərək yola düşdülər.

**İlham PƏNAHOV,**
**"Respublika".**




# Təhsil sisteminə dair maraqlı kitab

"Azərbaycan təhsil sistemində keyfiyyətin təminatı problemlərinin təhlili" adlı monoqrafiya bu yaxınlarda "Elm və təhsil" nəşriyyatı tərəfindən buraxılmışdır. Azərbaycan Dövlət Pedaqoji Universiteti Şəki filialının "Müasir təlim metodları və dayaq məntəqələri ilə iş" kabinetinin müdiri, əsərləri respublikanın nüfuzlu jurnallarında və xarici ölkələrin elmi nəşrlərində çap olunmuş gənc alim İbrahim Abdulsəlimlinin kitabında Azərbaycan təhsilinin bütün pillələrində keyfiyyətin təmin olunması problemi təhlil edilir. Müəllif sosial aspektdən dünya və Azərbaycan təhsil sistemində keyfiyyətin təmin olunmasını tədqiqata cəlb edərək mövcud təcrübələri ümumiləşdirir və yeni modellərlə oxuculara təqdim edir.

Son onilliklərdə elm və təhsil sahəsində aparılan islahatlar ölkəmizin inkişafına, əhalinin həyat tərzinin yaxşılaşmasına, milli prioritetlərin həyata keçirilməsinə geniş imkanlar yaratmışdır. Ancaq həyata keçirilən bütün islahatların kökündə təhsilin keyfiyyət təminatı durur. Elə bu baxımdan oxuculara təqdim olunan hazırkı monoqrafiya öz aktuallığı ilə mühüm əhəmiyyət kəsb edir.

Müasir informasiya cəmiyyətində təhsilin rolu gündən-günə artmaqdadır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri təhsil əsri elan etmişdir. Yüksək intellektə malik olan insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu indiki qədər heç vaxt aktual olmamışdır. Müasir inkişaf tempi sübut edir ki, təhsil bir sosial institut olaraq daim təkmilləşir və inkişaf edir. Bu isə öz növbəsində təhsildə keyfiyyət təminatını vacib edir. Təhsilin keyfiyyət təminatı isə son nəticə - cəmiyyətin tərəqqisi, yüksək əxlaqi dəyərlərə malik olan, ictimai-siyasi, elmilik və peşəkarlıq baxımından yüksək tələblərə cavab verən, hər bir demokratik cəmiyyətdə işləyib yaşaya bilən, öz şəxsi bilik və bacarıqlarından ictimai fayda baxımından istifadə etməyi bacaran insan kapitalı deməkdir. Cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Elə bu xüsusdan idi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qeyd etmişdir ki, işıqlı xoşbəxt gələcək savadlı, mükəmməl təhsilli gənclərin çiyinləri üzərində qurulacaqdır.

Oxuculara təqdim olunan bu kitab Azərbaycan ali təhsil sistemində keyfiyyətin təmin olunması probleminin yeni və obyektiv meyarlarla əhatəli və sistemli araşdırılmasına həsr olunmuş monoqrafik tədqiqatdır. Əsərin elmi yeniliyi Bolonya sisteminin aparıcı standartı və prinsipi Keyfiyyətin Təminatı Sisteminin Azərbaycan universitetləri arasında tətbiq olunması problemləri sosiologi aspektdən araşdırılmış, onun daha da geniş tətbiqi yolları proqram şəklində təhlil olunmuşdur.

Müəllif təhsildə keyfiyyətin yüksəldilməsinə dair reallıqların müasir Azərbaycan şəraitində həyata keçirilməsi mexanizmlərinin və metodlarının tətbiqi üsullarının geniş şərhini verir. Kitabın quruluşu qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq tərtib edilmiş və giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Əsərin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, məqsəd və vəzifələr tədqiqatın metodları müəyyən edilmiş, onun elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, müasir təhsil sistemi üçün aktuallıq kəsb edən müddəalar göstərilmişdir. Müəllif Azərbaycan ali təhsil sistemində uğurla tətbiq olunan Bolonya sisteminin tarixindən, tətbiqolunma arenasından, problemlər, uğurlar haqqında ətraflı məlumat verir. Bolonya sisteminin Azərbaycan ali təhsil sistemində keyfiyyətin yüksəldilməsi baxımından hansı dəyişikliklərə yol açmasından bəhs edir.

XXI əsrin əvvəllərindən Azərbaycan təhsil sistemində baş verən keyfiyyət dəyişikliyi dünya təhsil təcrübəsinin tətbiqi ilə bağlı olmuşdur. Dövlət səviyyəsində qəbul olunmuş proqram və layihələr içərisində Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli sərəncamı ali təhsil sahəsində gedən islahatların həyata keçirilməsində başlanğıc rolunu oynamışdır.

Kitab haqqında sosiologiya üzrə elmlər doktoru, professor Rafail Həsənovun yazdığı "Təhsilimizin keyfiyyət təminatının problemləri və bu problemlərin




həllini özündə əks etdirən əhəmiyyətli təqdiqat əsəri" adlı rəyində deyilir ki, "İ.Abdulsəlimlinin əsəri həm dərin nəzəri, həm də praktiki əhəmiyyəti olan elmi-tədqiqat işidir. Onun nəticələrinin bakalavr və ixtisasartırma sahəsində tətbiq olunması böyük əhəmiyyət kəsb edə bilər. Tədqiqatın nəticələri ali məktəblərdə Azərbaycan Respublikası ali təhsil sisteminin keyfiyyət kriteriyalarının və göstəricilərinin işlənib hazırlanmasında, ali təhsilin və ümumilikdə təhsil tarixinin tədris olunmasında önəmli genofond rolunu oynaya, dərslik və dərs vəsaitlərinin, təhsilə dair terminalogiya lüğətlərinin hazırlanmasında mühüm əhəmiyyət kəsb edə bilər".

**İsmət SƏFƏROV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" Mükafatı laureatı.**

# Azercell-in Mobil Diş Klinikası pulsuz xidməti davam etdirir

**Azercell Telekom MMC-nin Mobil Diş Klinikası ehtiyacı olan ailələrə, kimsəsizlərə, məcburi köçkünlərə pulsuz xidmət göstərməkdə davam edir.**

2018-ci ilin ilk aylarında klinikanın həkimləri yüzlərlə ehtiyacı olan insanı pulsuz müayinə və müalicə ediblər. Yanvar, fevral və mart aylarında bu unikal layihədən Əhmədli qəsəbəsi 3 saylı uşaq evinin sakinləri və Pirşağa qəsəbəsində fəaliyyət göstərən Xocalı rayonu 2 saylı orta məktəbin 142 şagirdi yararlanıb.

Qeyd edək ki, Azərbaycandakı əksər uşaq evinin stomatoloji kabinetinin olmamasını nəzərə alan Azercell Mobil Diş klinikasını ən müasir tibbi avadanlıqla təchiz edib. Yalnız Bakıda deyil, regionlarda yaşayan kimsəsiz uşaqlara da yardım etməyi hədəfləyən Mobil Diş Klinikası indiyə qədər ölkənin bir çox rayon və şəhərlərində yerləşən uşaq evləri, internat məktəbləri, uşaq kəndlərində öz xidmətlərini göstərib.




Fəaliyyət göstərdiyi 7 il ərzində layihə çərçivəsində 4000-dən çox insan Mobil Diş Klinikasının həkimləri tərəfindən müayinə edilib, ehtiyac olduğu tədqirdə müalicə alıb.

**Ülvi QARAYEV,**
**"Respublika".**

## Səhmdarların nəzərinə!

04 iyun 2018-ci il saat 15:00-da "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir. Gündəlikdəki məsələ:

**1.** "Aqrolizinq" ASC-nin nizamnamə kapitalının artırılması.

Ümumi yığıncağın keçirilmə ünvanı: Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 40, Hökumət evi, 7-ci mərtəbə.

Gündəlikdə nəzərdə tutulan məsələ üzrə sənədlərlə yuxarıda qeyd olunan ünvanda tanış olmaq olar.

**Əlaqələndirici şəxs:** *Aynurə Quliyeva.*

**Əlaqə telefonları:** *012-425-59-47, 012-425-22-64*

## BİLDİRİŞ

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, təsərrüfat malları və dəftərxana ləvazimatları satınalınması məqsədilə kotirovka sorğusu elan edir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Hüseyn Cavid-139*

**Əlavə məlumat üçün əlaqə telefonu:** ***(012) 599-08-11***

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 30.04.2018-ci il saat 17:00

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

## AÇIQ TENDER ELAN EDİR

**LOT-1. Bərk inventarın alınması**
**LOT-2. Avadanlıqların alınması**
**LOT-3. Digər maşın və avadanlıqların alınması**
**LOT-4. Cari təmir işlərinin görülməsi**
**LOT-5. Əsaslı təmir işlərinin görülməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan və ya ingilis dillərində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 40, Hökümət Evi, 5-ci giriş qapısı, 3-cü mərtəbə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsi (telefon: (050) 675-65-94) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**LOT-1. 200 AZN**
**LOT-2. 200 AZN**
**LOT-3. 200 AZN**
**LOT-4. 200 AZN**
**LOT-5. 200 AZN**
*VÖEN: 1700015381*
*H/h: AZ 78 CTRE 00000000000002178501*
*Bank rekvizitləri:*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*VÖEN: 1401555071*
*SWİFT: CTREAZ22*
*M/h: AZ 41 NABZ 01360100000000003944*
*Kod: 210005*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş şirkətlər üçün vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında fəaliyyətin xülasəsi;*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*9. İddiaçının maddi-texniki bazası.*

Sənədlər Azərbaycan və ya ingilis dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 01 iyun 2018-ci il saat 17:00 tarixinə, tender təklifləri və bank zəmanətləri isə möhürlənmiş ikiqat zərfdə 11 iyun 2018-ci il saat 17.00-dək qədər Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 40, Hökümət Evi, 5-ci giriş qapısı, 3-cü mərtəbə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri, 12 iyun 2018-ci il saat 12:00-da tarixində Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 40, Hökümət Evi, 5-ci giriş qapısı, 3-cü mərtəbə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Respublika" qəzetinin 13 mart 2018-ci il tarixli nömrəsində dərc edilmiş "Mebel avadanlıqlarının" satınalmasına dair 03 may 2018-ci il tarixdə keçirilməsi nəzərdə tutulan açıq tenderin açılış tarixi 18 may 2018-ci il tarixinə dəyişdirilmişdir. Müvafiq olaraq ilkin sənədlərin qəbulu 07 may 2018-ci il saat 17:00-a, tender təklifləri ilə bağlı zərflərin qəbulu 02 may 2018-ci il saat 12:00-dək təyin edilir.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən "Respublika" qəzetinin 24 yanvar 2018-ci il tarixli sayında dərc edilmiş Ədliyyə Nazirliyinin qurumlarına və maliyyə təminatı nazirlik tərəfindən həyata keçirilən məhkəmələrə inventar, kompüter və digər avadanlıqlar, dəftərxana ləvazimatı, təsərrüfat malları, habelə ədliyyə işçilərinə geyim formalarının alınması, informasiya-kommunikasiya texnologiyaları üzrə texniki dəstək xidmətlərinin göstərilməsi ilə bağlı satınalmalar komissiyasının 07 mart 2018-ci il tarixli qərarı ilə LOT-1. Ədliyyə Nazirliyinin struktur qurumlarına dəftərxana ləvazimatlarının və təsərrüfat mallarının satınalınması və LOT-2. Maliyyə təminatı nazirlik tərəfindən həyata keçirilən məhkəmələrə dəftərxana ləvazimatlarının və təsərrüfat mallarının satınalınması - "Ofis Aləmi" MMC, LOT-3. Ədliyyə Nazirliyinin struktur qurumlarına kompüter və digər avadanlığın satınalınması və Lot-4. Maliyyə təminatı nazirlik tərəfindən həyata keçirilən məhkəmələrə kompüter və digər avadanlığın satınalınması - "Best Comp" MMC, LOT-7. Ədliyyə işçilərinə xüsusi geyim formalarının satınalınması - "Monolit" MMC, LOT-8. Ədliyyə Nazirliyinin struktur qurumlarına inventarların satınalınması, LOT-9. Maliyyə təminatı nazirlik tərəfindən həyata keçirilən məhkəmələrə inventarların satınalınması - "Embawood" MMC, LOT-10. Ədliyyə Nazirliyinin struktur qurumlarında İKT avadanlıqlarına texniki dəstək xidmətlərinin göstərilməsinin satınalınması və LOT-11. Maliyyə təminatı nazirlik tərəfindən həyata keçirilən məhkəmələrdə İKT avadanlıqlarına texniki dəstək xidmətlərinin göstərilməsinin satınalınması - "Best Comp" MMC qalib elan edilmişdir. Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23




### TRAMP: SURİYADA ABŞ VƏ RUSİYA ARASINDA TOQQUŞMA YAŞANIB



"Rusiyaya qarşı məndən sərt yanaşan yoxdur". "APA"nın Rusiya mediasına istinadən verdiyi xəbərə görə, bu barədə prezident Donald Tramp ABŞ-da səfərdə olan Yaponiyanın baş naziri Şinzo Abe ilə birgə keçirdiyi mətbuat konfransında bildirib.

Eyni zamanda, Donald Tramp Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etməyə hazır olduğunu da qeyd edib.

D.Tramp həmçinin bildirib ki, bir ay əvvəl Suriyada ABŞ və Rusiya hərbçiləri arasında şiddətli toqquşma baş verib. "Bu çox kədərlidir. O döyüşdə bir çox insan həlak olub", - deyə Donald Tramp əlavə edib. Bununla yanaşı, ABŞ prezidenti hadisənin detallarını açıqlamayıb.

Xatırladaq ki, fevral ayının ortalarında Amerika mətbuatında Suriyada ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın hökumət qüvvələrinə endirdiyi zərbələr nəticəsində xeyli sayda rusiyalı hərbçinin həlak olması barədə məlumatlar yayılıb. O zaman ABŞ-ın müdafiə naziri Ceyms Mettis hadisə barədə məlumatlı olmadığını bildirmişdi.

Rusiya XİN-i toqquşmalar nəticəsində Rusiya və MDB ölkələrinin vətəndaşlarının öldüyü və yaralandığını təsdiqləsə də, aralarında hərbçilərin olduğunu təkzib edib.

### TÜRKİYƏ ABŞ-da SAXLADIĞI QIZILINI GERİ GƏTİRDİ



Türkiyə Mərkəzi Bankı ABŞ-dan öz qızıl ehtiyatlarını çıxarıb. "APA"nın məlumatına görə, bu barədə mərkəzi bankın rəsmi internet səhifəsində yerləşdirilən hesabatda qeyd olunur.

Verilən xəbərə əsasən, 2017-ci il ərzində Türkiyənin ABŞ-ın Federal Rezerv Bankında ümumilikdə 28,7 ton qızılı var idi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın "beynəlxalq valyutaların təzyiqinə davam gətirmək üçün qızıl ehtiyatlarımızdan istifadə etməliyik" açıqlamasından sonra bank bu barədə qərar qəbul edib.

Türkiyə Mərkəzi Bankının bu qərarından sonra artıq digər yerli banklar da öz qızıl ehtiyatlarını ABŞ-dan çıxarmağa başlayıblar. Məlumat üçün qeyd edək ki, Türkiyənin xarici ölkələrdə ümumilikdə 220 ton qızıl ehtiyatı saxlanılır.

Eyni zamanda, verilən xəbərə görə, "Ziraat" və "Vakıf" bankları da Böyük Britaniyadan ümumi çəkisi 95 ton olan qızıl ehtiyatlarının daşınmasına başlayıblar.

Bununla yanaşı, ABŞ mətbuatının yaydığı xəbərlərə görə isə rəsmi Ankara Vaşinqtonla arasındakı gərginliyin artması səbəbi ilə bu addımı atıb.

Qeyd edək ki, Türkiyənin ABŞ-dakı qızıl ehtiyatı 23,5 milyard dollar dəyərində qiymətləndirilir.

### NEBENZYA: BRİTANİYA "SKRİPAL İŞİ" ÜZRƏ DƏLİLLƏRİ MƏHV EDİR




Böyük Britaniya hökuməti Sergey və Yuliya Skripalların zəhərlənməsi işi üzrə dəlilləri planlı şəkildə məhv edir. "APA"nın verdiyi məlumata görə, bunu Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya Təhlükəsizlik Şurasında "Skripal işi" üzrə keçirilən iclasda bəyan edib.

"Britaniya hökuməti planlı şəkildə bütün dəlillərin məhvi ilə məşğuldur. Skripalin evindəki heyvanlar məhv edilib. Skripal və qızının olduğu bütün yerlər təmizlənir - restoran, skamya və sairə. Bununla belə sıravi vətəndaşlar Solsberidə heç bir şey olmadığı kimi yaşamağa davam edirlər. Skripalın işi üzrə Britaniya tərəfinə 47 sualla müraciət etsək də, indiyədək cəmi iki natamam cavab almışıq", - deyə V.Nebenzya qeyd edib.

Martın 5-də Britaniya xüsusi xidmətlərinə casusluqda günahlandırılan və hazırda İngiltərədə yaşayan Rusiya Baş Kəşfiyyat İdarəsinin sabiq polkovniki Sergey Skripal və onun qızı Yuliya Solsberi şəhərində ticarət mərkəzində naməlum maddədən zəhərlənərək xəstəxanaya yerləşdirilib. Aprelin 10-da Yuliya Skripal xəstəxanadan buraxılıb.

Böyük Britaniya hökumətinin qənaətinə görə, onlara qarşı SSRİ-də və Rusiyada hazırlanmış "Noviçok" adlı kimyəvi silah tətbiq edilib. Rəsmi Moskva insidentlə bağlı bütün ittihamları rədd edib. Sergey Skripal 1999-cu ilə qədər Rusiya Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsində çalışıb. 2006-cı ildə Böyük Britaniyaya casusluq üstündə vətənə xəyanət ittihamı ilə həbs edilib və rütbədən məhrum olunub. 2010-cu ildə S.Skripal Rusiya və ABŞ arasında casus mübadiləsi çərçivəsində Britaniyaya göndərilib. ■

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot 1:** “Aztelekom” MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 5804 ədəd müxtəlif konfiqurasiyalı SFP modullarının satınalınması

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti 187 (Əlaqələndirici şəxs: Faiq Mustafayev, tel.: 012 344 00 00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az ünvanından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 1200 (bir min iki yüz) AZN**

*Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti*
*Hesab nömrəsi:*
*AZ62AZPO 91015461200420100166*
*Müəssisənin VÖEN-i: 9900038501*
*Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti-187*
*Bankın adı: “Azərpoçt” MMC PF 1*
*Kodu: 691011*
*Bankın VÖEN-i: 9900037711*
*Müxbir hesab:*
*AZ76NABZ 01350100000000094944*
*S.W.İ.F.T BİK: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *İddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *Tenderin Əsas Şərtlər Toplusunda nəzərdə tutulan və Tenderin Əsas Şərtlər Toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

*İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (“Əsli” və “Surəti”) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin “Əsli” və “Surəti” arasında fərqlər olduqda, üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 14 iyun 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 28 iyun 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına (“Aztelekom” MMC-nin Tender Komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır

İddiaçıların təklifləri 29 iyun 2018-ci il tarixində (saat 11.00-da) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - “Aztelekom” MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 2 lot üzrə keçirilir.**

**Lot 1:** “Aztelekom” MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan **500 ədəd kommutasiya L2 Switch avadanlığının** satınalınması

**İştirak haqqı: 800 (səkkiz yüz) manat**

**Lot 2:** “Aztelekom” MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan **20 ədəd kommutasiya L3 Switch avadanlığının** satınalınması

**İştirak haqqı: 1200 (bir min iki yüz) manat**

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti 187 (Əlaqələndirici şəxs: Faiq Mustafayev, tel.: 012 344 00 00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az) ünvanından əldə edə bilərlər.

*Müəssisənin adı:*
*“Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti*
*Hesab nömrəsi:*
*AZ62AZPO 91015461200420100166*
*Müəssisənin VÖEN-i: 9900038501*
*Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti-187*
*Bankın adı: “Azərpoçt” MMC PF 1*
*Kodu: 691011*
*Bankın VÖEN-i: 9900037711*
*Müxbir hesab:*
*AZ76NABZ 01350100000000094944*
*S.W.İ.F.T BİK: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *İddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *Tenderin Əsas Şərtlər Toplusunda nəzərdə tutulan və Tenderin Əsas Şərtlər Toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

*İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (“Əsli” və “Surəti”) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin “Əsli” və “Surəti” arasında fərqlər olduqda, üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 08 iyun 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 22 iyun 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına (“Aztelekom” MMC-ninTender Komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır

İddiaçıların təklifləri 25 iyun 2018-ci il tarixində (saat 11.00-da) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - “Aztelekom” MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Gəncə Şəhər Səhiyyə İdarəsi

## 2018-ci ildə avadanlığın, inventarların, yumşaq inventarların, digər maşın və avadanlığın və əsaslı təmir işlərinin görülməsinin satınalınması ilə əlaqədar

# AÇIQ TENDER ELAN EDİR

**LOT-1 Avadanlıqların satınalınması**
**LOT-2 Digər maşın və avadanlığın satınalınması**
**LOT-3 İnventarların satınalınması**
**LOT-4 Yumşaq inventarların satınalınması**
**LOT-5 Əsaslı təmir işlərinin görülməsi**

Tender iştirakçılarına təklif edilir ki, bütün LOT-lar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış iki qat bağlamada yazılı sürətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, tender təklifinin tamlığı, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər:

**Əlaqələndirici şəxs: ABBASOVA GÜLNAZ ƏKBƏR qızı**
**Telefon: 266-55-33**
**Ünvan: Gəncə şəhəri, Nizami küçəsi-40**

Maraqlananlar LOT-lar üzrə əsas şərtlər toplusunu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıda göstərilmiş ünvandan ala bilərlər.

**LOT-1 - 150,00 manat**
**LOT-2 - 200,00 manat**
**LOT-3 - 500,00 manat**
**LOT-4 - 200,00 manat**
**LOT-5 - 200,00 manat**

İddiaçı iştirak haqqını aşağıdakı hesaba köçürməlidir:
*Təşkilat: Gəncə şəhər Səhiyyə İdarəsi*
*Təsnifat kodu: 142340*
*Səviyyə kodu: 7Y*
*Hesab: AZ92CTRE00000000000002120631*
*VÖEN: 2300213451*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi Səhiyyə İdarəsi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*SWİFT BİK CTREAZ 22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün 04 iyun 2018-ci il saat 17:00-a kimi aşağıdakı sənədləri təqdim etməlidirlər.

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında arayışlar;*
*- tender təklifi təminatı (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətinə qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 2%-i həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

İddiaçılar bütün LOT-lar üzrə tender təkliflərini 17 iyun 2018-cı il saat 17-00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri LOT-1 üzrə 18 iyun 2018-ci il saat 10:00-da, LOT-2 üzrə 18 iyun 2018-ci il saat 11:00-da, LOT-3 üzrə 18 iyun 2018-ci il saat 12:00-da, LOT-4 üzrə 18 iyun 2018-ci il saat 15:00-da, LOT-5 üzrə 18 iyun 2018-ci il saat 16:00-da Gəncə Şəhər Səhiyyə İdarəsində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissıyası.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot 1:** “Aztelekom” MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 500 dəst P2P 1Gbt-lik optik şlüzlərin satınalınması

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti 187 (Əlaqələndirici şəxs: Faiq Mustafayev, tel.: 012 344 00 00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az ünvanından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 700 (yeddi yüz) AZN**

*Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti*
*Hesab nömrəsi:*
*AZ62AZPO 91015461200420100166*
*Müəssisənin VÖEN-i: 9900038501*
*Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti-187*
*Bankın adı: “Azərpoçt” MMC PF 1*
*Kodu: 691011*
*Bankın VÖEN-i: 9900037711*
*Müxbir hesab:*
*AZ76NABZ 01350100000000094944*
*S.W.İ.F.T BİK: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *İddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *Tenderin Əsas Şərtlər Toplusunda nəzərdə tutulan və Tenderin Əsas Şərtlər Toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

*İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (“Əsli” və “Surəti”) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin “Əsli” və “Surəti” arasında fərqlər olduqda, üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 12 iyun 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 25 iyun 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına (“Aztelekom” MMC-ninTender Komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır

İddiaçıların təklifləri 27 iyun 2018-ci il tarixində (saat 11.00-da) Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - “Aztelekom” MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## “AZERGOLD” QSC

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1 - Geoloji kəşfiyyat sahələrində yerüstü geofiziki tədqiqatların aparılması işlərinin satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “AzerGold” QSC Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H (Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel: 012-505-02-02, I-V günlər, saat 09.00-dan 18.00-dək) ünvanından ala bilərlər.

**İştirak haqqı: Lot 1 - 250 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab:*
*AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: “PAŞA Bank” ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər.*

Sənədlər Azərbaycan dilində təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **25 may 2018-ci il saat 15.00-a** qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **05 iyun 2018-ci il saat 15.00-a** qədər “AzerGold” QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **06 iyun 2018-ci il saat 15.00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**“AzerGold” QSC, TENDER KOMİSSİYASI.**

Xaçmaz rayonu, Köhnə Xaçmaz kənd sakini olmuş mərhum Musayeva Zivər Hüseyin qızına məxsus (JN-160, KOD: 30219088) olan Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Hüseynova Başxanım Hüseyn qızının adına Goranboy rayonu Nadirkənd kəndində yerləşən torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Kərimova Aysu Abbasqulu qızına verilmiş 02/10534 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU tərəfindən Quliyeva Aygün Yaşar qızına verilmiş 17/800034 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU tərəfindən Ağazadə Pərvin Çingiz oğluna verilmiş 15/200133 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Dövlətov Vasif Yusif oglunun adına “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC tərəfindən verilən BMK 7671 Möhür itdiyi üçün etibarsız sayılır.

Dövlətov Vasif Yusif oğlunun adına Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən verilən üzmə vasitəsinin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Şıxəkəran kənd sakini Rəhmanov Əbdül Abdin oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 532; KOD 80222028) itdiyi üçün etibarsız sayılır.

## Şabran Rayon Yaşıllıq və Təmizlik İdarəsi

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Şabran Rayon Yaşıllıq və Təmizlik İdarəsi, təsərrüfat mallarının kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 023- 353-27-32 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 30 aprel 2018-ci il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Şabran şəhəri, T.Abbasov küçəsi, 209.*

## BİLDİRİŞ

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Salyan rayon bölməsində təmiri işlərinin satınalınması məqsədi ilə kotirovka sorğusu keçirir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.*

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 27.04.2018-ci il saat 17:00.

**Əlavə məlumat üçün əlaqə telefonu:** *(012) 425-66-94.*

## BİLDİRİŞ:

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin 2018-ci ildə istifadə olunması nəzərdə tutulmuş əlavə 100 000 ədəd ciddi uçot blankı olan “malların fiziki şəxslərə təhvil-qəbul qəbzi”nin satınalınması məqsədi ilə keçirdiyi kotirovka sorğusu üzrə sənədlərin qəbulu 25.04.2018-ci il tarixə qədər uzadılmışdır.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.*

**Əlavə məlumat üçün əlaqə telefonu:** *(012) 425-66-94.*

**“Azərişıq” ASC tərəfindən keçirilmiş Müxtəlif növ mal-materialların və avadanlıqların satın alınması məqsədilə keçirilmiş Açıq Tenderdə Tender Komissiyasının qərarına əsasən qalib elan olunmuş “Gatdigital” MMC, “ Retro Holding” MMC şirkətləri ilə satınalma müqavilələri bağlanmışdır.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Milli Elmlər Akademiyası Polimer Materialları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əjdər oğlu Məmmədov və institutun əməkdaşları Solmaz Rzayeva, Kazım Quliyev, Abbasqulu Quliyev, Rauf Babayev, Tahir Alxazov, Ağa Mustafayev, Yavuz Məmmədov, Niyazi Rəsulzadə AMEA-nın müxbir üzvü, professor Valeh Cəfərova, qardaşı**

**NİZAMİ MÜƏLLİMİN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Milli Elmlər Akademiyası Polimer Materialları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əjdər oğlu Məmmədov və İnstitutun əməkdaşları Solmaz Rzayeva, Kazım Quliyev, Abbasqulu Quliyev, Rauf Babayev, Tahir Alxazov, Ağa Mustafayev, Yavuz Məmmədov, Niyazi Rəsulzadə PMİ-nin laboratoriya müdiri, k.ü.e.d., professor Nəcəf Qəhrəmanova, bacısı**

**ASİYƏ XANIMIN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-95-51;**
Humanitar siyasət redaksiyası: **539-26-18;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **539-26-18;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
20.04.2018